**PAŞA YAQUB**

# EMİNLİ ENSİKLOPEDİYASI

**Bakı - 2015**

**Redaktor:** **Nazim Tapdıqoğlu (*Vəlişov*) -**
*tədqiqatçı-tarixçi, Bakı Dövlət Universitetinin müəllimi, "Qızıl Qələm" mükafatı laureatı*

Paşa Yaqub «**Eminli ensiklopediyası**»,
Bakı,«Zərdabi LTD» MMC, 2015, 112 səh.

*Masallı rayonunun Eminli kəndinin tarıxı, etnoqrafiyası, arxeologiyası, coğrafiyası ilə bağlı olan bu ensiklopedik məlumat kitabında kənddə olan coğrafi adların mənşəyi, mənsubiyyəti haqqında qısa izahlı şərhlər, eləcə də Eminlinin keçmiş bəylərinin, tanınmış ziyalılarının, görkəmli şəxsiyyətlərinin, eləcə də Qarabağ müharibəsində şəhid olanların, Böyük Vətən müharibəsi veteranlarının haqqında məlumatlar verilmişdir.*

*Eminli kəndi haqqında ilk dəfədir ki, bu cür sistemli şəkildə tədqiqat aparılaraq, kitab çap olunur. Ümidvarıq ki, geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab gələcəkdə tədqiqatçılar üçün zəngin məlumat mənbəyi olacaqdır.*

$Y \frac{4705120494-02}{0103-2015}$ Qrifli nəşr

© Paşa Yaqub, 2015
© "Zərdabi LTD" MMC, 2015

*Hörmətli oxucu! Qarşınızdakı bu kitab Masallı rayonunun Eminli kəndində anadan olmuş milli-mənəvi dəyərlərimizə və dövlətçiliyimizə bağlı olan vətənpərvər ziyalı, Azərbaycan Respulikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin şöbə müdiri, Dövlət Qulluğunun müşaviri, Respublika Memarlar İttifaqının üzvü, İqtisadiyyat ürə fəlsəfə doktoru, doğulduğu yurdun tarixinə, soyuna bağlılığı ilə seçilən hörmətli Dilxoş Əliqulu oğlu Nuruyevin təşəbbüsü ilə araya- ərsəyə gəlmişdir.*


Xəzər dənizi
Dəlləkli kəndi
EMİNLİ
Şəhriyar

# REDAKTORDAN
# ÖN SÖZ ƏVƏZİ

Həyatda yaşayan hər bir insanın Tanrı, Vətən, yurd, ata-ana, ailə, övlad qarşısında bir mənəvi borcu vardır. Bu borc Allahın qoyduğu haqq yolla gedərək Vətənə layiqli övlad olmaqdan, doğulduğun doğma yurdu sevməkdən, o yurdu, o torpağı qorumaqdan, vəsf etməkdən, ağsaqqala, ağbirçəyə, valideynlərə, müəllimlərə, həqiqətə hörmət etməkdən, böyük amallardan, düz əməllərdən ibarətdir. Gözəl amallar yoluna qulluq etməyin şərəfli bir əməl olduğu çoxdan tanıdığım dəyərli araşdırmaların müəllfi hörmətli publisist Paşa Yaqub yaradıcılığının ana xəttini, əsas qayısini təşkil edir.

Vətənə, yurda bağlı olan yorulmaz araşdırıcı, tanınmış tədqiqatçı, ***30*** kitab müəllifi Paşa Yaqubun öz oxucusuna şövqlə təqdim etdiyi "***Eminli ensiklopediyası***" adlanan bu növbəti kitabında

***Masallı*** rayonunun qədim tarixə malik ***Eminli*** kəndinin coğrafiyası, tarixi keçmişi, müasir dövrü, arxeologiyası, ziyarətgahları, XIX əsr siyahıyaalmaları, məscidi, məktəbi, dəyərli ziyalıları, müəllimləri, yaradıcı insanları, tanınmış sakinləri, eləcə də Böyük Vətən müharibəsi veteranları və Qarabağ müharibəsinin şəhidləri haqqında qiymətli məlumatlar öz əksini tapmışdır. Kitabda müəllifin qədim oğuz yurdlarından biri olan Eminli və eminlilərə olan məhəbbəti, hörmət və ehtiramı özünü bariz şəkildə göstərir. Elə məhz bu da kitabın daha oxunaqlı olmasına dəlalət edir.

Həmişə Tanrıya sığınan, ürəyində böyük Allah sevgisi olan Paşa Yaqubun digər yazarlara bənzəməyən, özünəməxsus fərdi üslubu vardır. Yazdığı kitablarda keçmişimizə, mədəniyyətimizə, dinimizə hörmət, ehtiram, diqqət həmişə ön plandadır. Onun yazılarının mayasında vətənə, torpağa, yurda sevgi, həqiqət, təmizlik, ata-babalarımızın bizlərə yüzillərin sınağından çıxararaq miras qoyduqları milli-əxlaqi dəyərlər, torpağa, yurda bağlılıq durur və nə yaxşı ki, onun yazılarında bunlar var.

Mən onu uzun illər tanıdığım üçün qələminin gücünə, publisistikasına da yaxşı bələdəm. Tez-tez müxtəlif yerlərdə, tədbirlərdə, mətbəə və nəşriyyatlarda görüşürük. Artıq demək olar ki, onunla

məlhəm yaradıcılıq ünsiyyətimiz də vardır. Hətta onun *4* kitabının ("***Baş Daşağıl ensiklopediyası***", "***Padar kəndinin ensiklopediyası***", "***Kərimli ensiklopediyası***", "***Kəramətin sirləri***") ön söz müəllifi və redaktoruyam. Qələmilə, kitabları ilə daim xeyirxahlıq missiyası həyata keçirən Paşa Yaqub haqqında mənim belə bir qənaətim var ki, o, nədən, kimdən yazır-yazsın, hadisələri, gerçəklikləri, eləcə də eşitdiklərini, gördüklərini, oxuduqlarını bütün təfərrüatları ilə qələmə alır, sözdən, necə deyərlər, zərgər dəqiqliyi ilə istifadə edir və bunu məharətlə bacarır. Bu da əlbəttə ki, yazar üçün ən böyük üstünlük və stimuldur.

Mənim fikrimcə, Azərbaycanımızın hər bir bölgəsi, rayonu, kəndi haqqında ayrıca kitablar yazılmalı, onların tarixi keçmişi hərtərəfli öyrənilməlidir. Yorulmaq bilmədən çalışan və min bir əziyyət hesabına kitablarını həvəslə araya-ərsəyə gətirən ***Paşa Yaqub*** da bir növ bu missiyanı öhdəsinə götürərək öz yolu ilə addımlamaqdadır. Müəllifin bu kitabdakı araşdırmalarında ***Eminli*** kəndinin keçmişi ilə əlaqədar çoxlu maraqlı məlumatlar özünə yer almışdır. Mənim bilgimə görə, hələ indiyə qədər kəndin tarixi keçmişi, arxeologiyası, XIX əsr siyahıyaalmaları, ziyalıları, tanınmış şəxsiyyətləri, müharibə veteranları, şəhidləri ilə bağlı ümumi, sistemli bir kitab yazıl-

mayıbdır. "*Eminli ensiklopediyası*" adlanan belə bir kitab bu yolda ilk təşəbbüsdür. Müəllif kitab üzərində işləyərkən arxiv sənədləri, yazılı mənbələr, dövri mətbuatda kənd və onun sakinləri ilə bağlı dərc edilmiş materiallarla yanaşı, kənd sakinlərinin, ağsaqqalların, ziyalıların danışıqlarından da istifadə etmişdir. Kitabda toplanmış materiallar, mətnlər oxucuda böyük duygular oyadır, onda torpağa, yurda, vətənə bağlılıq hissini artırır. Bütün bunlar da əlbəttə ki, müəllifin uğurudur və bu uğur onun qələminin gücünün göstəricisi hesabına əldə edilmişdir.

Azərbaycanımızın ayrı-ayrı mahalları, bölgələri, yurd yerləri, kəndləri haqqında məqalələr, kitablar yazmaq, bu yurdlar barədə önəmli məlumatlar, bilgilər vermək və bütün bunları nəşr etdirib oxuculara, xüsusilə gələcək nəsillərə çatdırmaq olduqca vacib və lazımdır. Şəxsən mən bu yönümdə görülən işləri alqışlayır və onları çox dəyərləndirirəm. Tədqiqatçı ***Paşa Yaqub*** da bu istiqamətdə xeyli işlər görmüşdür. O, Azərbaycanımıza qələmilə təmənnasız xidmət edən cəfakeş müəlliflərimizdəndir. Onu digərlərindən fərqləndirən, oxucularına sevdirən də məhz çoxşaxəli yaradıcılığındakı xoş amal və müqəddəs məqsəddir.

***Eminli*** kəndinin zəngin tarixi keçmişindən, şərəfli sakinlərindən bəhs edən "***Eminli ensiklo-***

***pediyası***" kitabını oxuduqca görürsən ki, müəllif bu kitab üzərində işləyərkən xeyli sənədlər toplamış, çoxlu insanlar ilə görüşmüş, bir sıra arxiv sənədləri ilə tanış olmuş, kəndin yaşlı sakinlərilə saatlarla söhbətlər aparmış, ümumilikdə əldə etdiyi vacib məlumatları, lazımi informasiyaları obrazlı şəkildə, oxunaqlı bir dildə qələmə alaraq ortaya işinin nəticəsi olan gözəl bir kitab qoymuşdur. O, kəndin ərazisindəki toponimlər haqqında yazarkən müxtəlif insanların, ziyalıların, ağsaqqalların, özündən böyüklərin söhbətlərinə dönə-dönə qulaq asmış, deyilənləri, eşitdiklərini bir daha özünün fikir süzgəcindən keçirdikdən sonra qələmə almışdır. Kəndin ərazisində qeydə alınan və kitabda cilalanmış mətnlərlə verilən müxtəlif coğrafi adların (***Ağaverdi bağı, Eydil çayı, Qızılağac qoruğu, Mahmudabad, Mahmudlu, Masallı, Ocaqverdi yeri, Tülü çayı***) şərhləri Paşa Yaqub qələmində böyük maraqla oxunur.

Müəllif oxuculara kənd haqqında məlumatları bütün təfərrüatları ilə, sadə və aydın dildə çatdırılmasını təmin etmişdir. Ayrı-ayrı kənd adamlarının, fədakar insanların, ziyalıların kəndin sosial həyatında fəallığı kitabda konkret faktlarla açıqlanır. Kitabın ən ümdə məziyyətlərindən biri də kənddə doğulub boya-başa çatmış yurdsevər, vətənsevər insanların, el-obaya

bağlı işıqlı şəxsiyyətlərin haqqında kitabda dolğun məlumatların olmasıdır. İndiki və gələcək nəsillər üçün qələmə alınmış bu topluda ***Eminli*** kəndinin neçə-neçə tanınmış ziyalıları, sayılıb-seçilən övladları barədə kifayət qədər geniş məlumatlar öz əksini tapmışdır.

Əlbəttə ki, hər bir yaşayış məntəqəsi haqqında ayrıca kitab yazmaq çətin və məsuliyyətlidir. Bu mənada fikrimcə, "***Eminli ensiklopediyası***" kitabını yazmaqla Paşa Yaqub bu çətinliyin öhdəsindən bacarıqla gəlmişdir. Belə ki, müəllif kitabda kəndin müxtəlif dövrlərinə, tarixi şəxsiyyətlərinə, ziyarətgahına, məscidinə, məktəbinə, müəllimlərinə, 1941-1945-ci illərdə baş vermiş Böyük Vətən müharibəsində iştirak edən, şərəfli döyüş yolu keçən veteran sakinlərinə, Qarabağ müharibəsində iştirak etmiş, əlil və şəhid olmuş övladlarına geniş yer ayırmışdır. Hesab edirəm ki, müəllifin gərgin əmək, böyük zəhmət bahasına araya-ərsəyə gətirdiyi və əminlilərə töhfə etdiyi "*Eminli ensiklopediyası*" ən azı bu kənddən olan hər bir sakinin stolüstü kitabına çevriləcək, onlar bu kitabı sevə-sevə, dönə-dönə oxuyacaq, oxuduqca da onlara ulularından miras qalmış bu kəndi, bu yurdu daha çox sevəcəklər. İnanıram ki, böyük əziyyət hesabına başa gələn bu kitab ***Eminli*** kəndinin sakinləri, bütövlükdə bütün ma-

sallılar, eləcə də geniş oxucu kütləsi tərəfindən böyük maraqla qarşılanacaq və öz layiqli qiymətini alacaqdır. Belə kitablar mənəvi cəhətdən böyük tərbiyəvi əhəmiyyətə malikdir.

***Hörmətli oxucu!*** Əminəm ki, ***Sən*** də ata-babalarımızdan bizə miras qalan *milli-etik dəyərlərimizi* özündə yaşadan bu qiymətli kitabı böyük həvəslə, ehtiramla oxuyacaqsan.

**Nazim Tapdıqoğlu (Vəlişov)**
*tədqiqatçı, tarixçi, şair, elmi işçi, "Qızıl Qələm" mükafatı laureatı*



## EMİNLİ (MAHMUDLU) KƏNDİ

Azərbaycanın qədim və zəngin tarixə malik kəndlərindən biri də Eminli kəndidir. Masallı rayonunda Lənkəran ovalığında yerləşən bu kəndin qədim adı Mahmudlu olmuşdur.

Eminli kəndi rayon mərkəzindən 17 km cənubda, Xəzər dənizinin sahilində, Lənkəran ovalığındadır.

1960-cı illərdə AMEA-nın Arxeologiya İnsitutunun əməkdaşlarının Eminli kəndi ərazisində apardıqları arxeoloji qazıntılar zamanı neolit və eneolit dövrünə aid küp qəbirlər, tuncdan hazırlanmış bıçaq, xəncər, nizə, müxtəlif qablar və bəzək əşyaları aşkarlanmışdır. Tapılan bu maddi-mədəniyyət nümunələri sübut edir ki, hələ 4-5 min il bundan əvvəl bu ərazidə insanlar toplu şəkildə (cəmiyyət halında) yaşamışlar.

Arxeoloji qazıntılar nəticəsində tapılmış bu maddi-mədəniyyət abidələri xalqımızın tarixini

öyrənmək üçün əyani vasitələrdən biri olmaqla çox böyük elmi əhəmiyyətə malikdir. Maddi-mədəniyyət abidələrinin formaları, onların istehsal texnikası, üzərindəki naxışlar və s. cəmiyyət tarixinin müəyyən dövrlərində insanların bacarıq səviyəsini, istehsalatda tutduğu mövqeyi və qismən də onların etiqadını əks etdirir.







Eminli kəndinin ərazisindən aşkar edilmiş maddi-mədəniyyət qalıqları həmin yerdə uzun müddət yaşamış olan insanların qədim həyatını çox gözəl əks etdirir. Burada aşkarlanan arxeoloji mədəniyyət nümunələrindən ən əhəmiyyətlisi küp qəbirlərdir. Bu nümunələrin xüsusiyyəti ondan ibarətdir ki, ölülər gildən düzəldilmiş çox iri küplərin içərisində basdırılmışdır. Ölüləri küp içərisində basdırmaq qədim dəfn adətlərindən biri olmuşdur. Küpdə ölü basdırmaq adəti ən qədim dövrlərdə Misirdə, təxminən eramızdan əvvəlki üçüncü minillikdə (Beynənnəhreyndə) şumerlərdə adət imiş.



Eminli kəndinin tarixini araşdırarkən, Azərbaycanın Milli Arxivində çar Rusiyasının XIX və XX əsrlərə aid olan arxiv sənədlərini incələdim. Sənədlərdən məlum oldu ki, XX əsrin əvvəllərinə qədər kəndin adı Mahmudlu olmuşdur. 1849, 1863, 1873, 1886-cı illərdə Nikolay hökumətinin tərtib etdiyi əhalinin siyahıya alınmasında da kəndin adı Mahmudlu yazılmışdır.

Kəndin adının mənşəyi barədə tədqiqatçılar müxtəlif fikirlər səsləndirirlər (bu fikirlər Azərbaycan Sovet Ensiklopediyasının VI cildində öz əksini tapmışdır). Aparılan tədqiqatlar göstərir ki, orta əsrlərdə burada, kəndin yerləşdiyi ərazidə Mahmudabad şəhəri mövcud olmuşdur. Həmdullah Qəzvininin yazdığına görə, Mahmudabadı Elxani hökmdarı Mahmud Qazan xan öz adı ilə adlandırmışdır. Bəcrəvandan 20 fərsəx (təqribən 140 km), Ərdəbildən 40 fərsəx (təqribən 280 km) məsafədə yerləşirdi. Bir çox tarixçilər Mahmudabadın indiki Masallı rayonunun ərazisində yerləşməsi haqqında maraqlı fikirlər bildirmişlər.

Mahmudabad şəhəri Güştasfi mahalının sənətkarlıq və ticarət mərkəzi olmuşdur. 1555-ci ildə Mahmudabadın hakimi Şərəfxan Bidlisi idi. Mah-

mudabad zərbxanasında Şirvanşahlar adından pul kəsildiyidə məlumdur.

1394-cü ildə Teymurun qoşunları Mahmudabad yaxınlığında qışlamışdır.

Ağqoyunlularla Teymurilər arasında vuruşmalardan biri də Mahmudabad yaxınlığında baş vermişdir. Müttəfiqi Cahanşahın Muş vuruşmasında Uzun Həsən tərəfindən məğlub edildiyini eşidən Teymuri hökmdarı Əbu Səid Azərbaycana hücuma hazırlaşdı. Danışıqlar aparmaq üçün Xorasana göndərilmiş Sara xatun Əbu Səidi məqsədindən döndərə bilmədi. Əbu Səid Şirvanşah Fərrux Yassardan (1462-1501) hərbi yardım almaq və qışlamaq məqsədi ilə 1468/69-cu ildə Mahmudabad yaxınlığında düşərgə saldı. Bu vaxt Uzun Həsən Teymuri qoşunlarını qurudan mühasirəyə aldı. Fərrux Yassar Uzun Həsənlə ittifaqa girdi. Ərdəbil hakimi Səfəvi Şeyx Heydər də Uzun Həsənə kömək edirdi. Əbu Səidin qoşunları çıxılmaz vəziyyətə düşdü və məğlub oldu. Əbu Səid əsir alındı. Azərbaycan hökmdarlarının birləşmiş qüvvələrinin qələbəsi ölkənin müstəqilliyinin qorunmasında mühüm rol oynadı.

Araşdırdığımız sənədlərin və kənd ərazisində aparılmış arxeoloji tədqiqatların nəticələri belə bir qənaətə gəlməyə əsas verir ki, yuxarıda bəhs etdiyimiz Mahmudabad şəhəri həmin bu Mahmudlu

kəndinin yerində olmuşdur. Əlbəttə, qəti və konkret fikir söyləmək üçün daha geniş arxeoloji tədqiqatlara ehtiyac vardır.

Mahmudlu kəndinin yerləşdiyi ərazi antik dövrdə Midiya, Midiya-Atropatena, sonralar Qafqaz Albaniyasının Kaspiana vilayətinin, XVI əsrdən XVIII əsrin ortalarına qədər Səfəvilər dövlətinin, XVIII əsrin ortalarından Lənkəran xanlığının tərkibində olmuşdur. XIX əsrin ortalarında Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarının ərazisi Lənkəran qəzası adlanırdı ki, Mahmudlu (Eminli) kəndi də bu qəzanın tərkibinə daxil idi.

1918-ci ildə Mahmudlunun adı dəyişilərək, kənd sakini, xeyriyyəçi Emin Eminalı oğlunun (1781 – 1854) şərəfinə Eminli adlanmışdır.

**1849**-cu il siyahıya almasına görə, Mahmudluda cəmi 147 tüstü olmuş, 429 kişi yaşamışdır (qadınlar siyahıya alınmayıblar). Həmin ildə kənddə 147 ailə olmuş, 99 subay kişi, 10 nəfər isə yetim uşaq qeydə alınmışdır.



**1863**-cü il siyahıya almasına görə, Mahmudluda 143 tüstü olmuş, 936 nəfər əhali (o cümlədən 516 kişi, 420 qadın) yaşamışdır.

Əhali əsasən heyvandarlıq, taxılçılıq, balıqçılıq, ovçuluq, gəmiçilik, çəltikçilik və tərəvəzçiliklə məşğul olmuşdur.

Hazırda Eminlinin 920 hektar ərazisi, 1065 nəfər (01 yanvar 2014-ci il tarixə olan məlumata görə) əhalisi vardır.

Kənddə *eminlilər, mahmudlular, abaslılar (onlara iranlılar da deyilir),salmanlılar, dəlivəlililər* adlı nəsil və tirələr məskunlaşmışlar.

Qədim Mahmudlu təbii cəhətdən zəngin, bol məhsullu, strateji cəhətdən möhkəm bir yerdə, həmçinin Xəzər dənizinin sahilində yerləşdiyi üçün ən qədim zamandan yaşayış üçün çox əlverişli olmuşdur. Coğrafi mühit, şübhəsiz, cəmiyyətin inkişafının daimi və zəruri şərtlərindən biridir və bu mühit, əlbəttə, cəmiyyətin inkişafına təsir edir, cəmiyyətin inkişafının gedişini sürətləndirir və ya ləngidir.



Mahmudlu dəniz kənarın-

da yerləşdiyi üçün, liman kəndi olaraq, Azərbaycanın şərq, qərb, şimal və cənub arasındakı əlaqəsində çox mühüm mövqe tutmuşdur. Bu isə, kənddə mədəniyyətin daha sürətlə inkişafına təkan vermişdir.

Talış dağlarının ətəyində və Xəzər dənizinin sahilində yerləşən bu kənd çox füsünkar gözəlliyə malikdir. Yaşıl çəmənləri, bağ-bağatı və özəlliklə də mərkəzindən axan *Eydil* və *Tülü* çayları Eminliyə xüsusi gözəllik verir.

Kəndin çox məhsuldar və bərəkətli torpağı var. Burada taxılçılıq, meyvəçilik, heyvandarlıq, balıqçılıq və ovçuluq xüsüsilə inkişaf etmişdir. Burada tərəvəz-bostan bitkiləri, dənli bitkilər, texniki bitkilər və s.yetişdirilir.



Kənddə orta məktəb, kitabxana, məscid və eləcə də müxtəlif ictimai-iaşə obyektləri fəaliyyət göstərir...

Bu kitabda qədim tarixə malik Mahmudlu kəndinin məhəllələrindən, nəsillərindən, toponimlərindən, tarixi şəxsiyyətlərindən Qarabağ müharibəsindəki şəhidlərindən bəhs edəcəyik. Kəndin qocaman sakinləri, tanınmış zi-

yalıları ilə söhbətlərimdə əldə etdiyim müxtəlif səpkili informasiyalar, həmçinin arxivlərdən götürdüyüm məlumatlar əsasında belə bir ensiklopedik, məlumat kitabı yaranmışdır.

Yuxarıda qeyd etdim ki, Eminli üstün bir təbiətə və gözəlliyə malikdir. Maraqlıdır ki, bu üstünlük kəndin elmi-mədəni və mənəvi səviyyəsində də özünü biruzə verir. Belə ki, bu kənd ölkəmizə onlarla tanınmış ziyalı-alim, mühəndis, həkim, siyasətci, neftçi, jurnalist, mədəniyyət işçisi, hərbçi, idmançı və s. bəxş etmişdir. Bu torpaq indiyədək elm, mədəniyyət və incəsənətin müxtəlif sahələrində onlarla tanınmış mütəxəssislər yetirmişdir.

**Əziz oxucu!** Bildirmək istəyirəm ki, bu kitabı xoş məramla, böyük həvəslə qələmə aldım. Ola bilsin ki, kitabda müəyyən fikirlər, faktlar səthi tədqiq olunmuş, bəzi tanınmış şəxsiyyətlərin adları kənarda qalmışdır. Yəqin ki, bu və ya digər toponimin, faktın izahında müəyyən mübahisəli, nöqsanlı fikirlər də var. Odur ki, bu mövzuda sizin dəyərli fikirlərinizi və mülahizələrinizi dinləmək istərdim. Əvvəlcədən sizə öz təşəkkürümü bildirirəm.

Hörmətlə: müəllif- **Paşa Yaqub**

## EMİNLİ KƏNDİNDƏKİ TOPONİMLƏR

**Ağaverdi bağı –** Eminli kəndində qədim yurd yeri. Ağaverdi Bədəl oğluna məxsus olub. O, 1844-cü il təvəllüdlü olmaqla, Eminəli bəyin nəvəsi, Emin bəyin qardaşı oğlu olub. Sənəti ustalıq olan Ağaverdi kişi gəmi düzəltməkdə məşhur idi. Dəniz qırağında yaşadıqlarından ətraf kəndlərin əhalisi gəmiçiliklə məşğul idilər. Bu səbəbdən gəmi ustasına çox böyük ehtiyac vardı. Üsta Ağaverdinin əl işləri Eminlidəki bəzi evlərdə hələ də qalmaqdadır.

**Tülü çayı** – Viləş çayının qolu. Eminli kəndinin ərazisindən axmaqla Xəzərə tökülür. Sakinlər çaydan həm içməli su mənbəyi, həm də əkin sahələrini suvarmaq üçün istifadə edirlər. Bəzi tədqiqatçılar *tülü* sözünü türkdilli *dulu* tayfasının adı ilə bağlayırlar. *Dulu* tayfası II əsrdə hunlarla

birlikdə Tyanşan və Altay arasındakı ərazidə yaşayırdılar. VI əsrdə Qərbi Türk xanlığının tərkibinə daxil idilər. Müasir qırğızların tərkibində tolo adı ilə qalmışlar...

**Eydil çayı** – Viləş çayının qolu. Eminli kəndinin ərazisindən axmaqla Xəzərə tökülür. Kənd sakinləri çaydan həm içməli su mənbəyi, həm də əkin sahələrini suvarmaq üçün istifadə edirlər. Hidronim qırğızların **edilli** tayfa adını özündə əks etdirir. Xəzərin üç paytaxt şəhərindən birinin adı **İdil**, Volqa çayının keçmiş adlarından biri **İtil** olmuşdur. Hal-hazırda Türkiyənin Qars əyalətində, eləcə də Xocavənd rayonunda **Edilli** adlanan kənd mövcuddur...

**Ocaqverdi yeri** – Eminlidə yaşamış Ocaqverdi Məmmədqulu oğluna (1842-ci il təvəllüdlü) məxsus torpaq sahəsi olduğundan onun adı ilə adlanır.



**Mahmudlu** – Eminli kəndinin qədim adı. Vaxtilə *Mahmudlu* tayfasının burada məskunlaşması nəticəsində yaranmışdır. Cənubi Qafqazda bir çox yaşayış



məskənləri salmış türkdilli tayfanın adıdır. Hazırda Azərbaycanın bir neçə rayonunda Mahmudlu və yaxud Kürdmahmudlu adlı kəndlər mövcuddur.

**Mahmudabad** – Eminli kəndinin ərazisində orta əsrlərdə mövcud olduğu ehtimal edilən şəhər. Həmdullah Qəzvininin yazdığına görə, Mahmudabadı Elxani hökmdarı Mahmud Qazan xan öz adı ilə adlandırmışdır. Bəcrəvandan təqribən 140 km, Ərdəbildən isə təqribən 280 km məsafədə yerləşirdi. Bir çox tarixçilər Mahmudabadın indiki Masallı rayonunun (çox böyük ehtimalla Eminli kəndinin) ərazisində yerləşməsi haqqında fikir bildirmişlər. 1468/69-cu ildə Ağqoyunlu Uzun Həsənlə müharibəyə hazırlaşan Teymuri hökmdarı Əbu Səidin, 1500-cü ildə isə I Şah İsmayılın qoşunları Mahmudabad yaxınlığında qışlamışdır.

**Qızılağac qoruğu** – Eminli kəndinin şərq tərəfində yerləşən Dövlət qoruğu və eyni adlı kənd. Lənkəran ovalığındadır. Bəzi tədqiqatçılar Türkiyənin Antaliya, Budur və İsparta əyalətlərində yaşayan *qızılağac* tayfasına əsaslanaraq ərazinn adını etnotoponim hesab edirlər. Azərbayca-

nın qədim yaşayış məskənlərindəndir. Orta əsrlərdə Qızılağac Xəzər limanları ilə ticarət əlaqəsi saxlayırdı. Əhali əsasən gəmiçilik və balıqçılıqla məşğul olurdu. Gilan və Mazandarana gedən karvan yolu Mahmudlu və Qızılağacdan keçirdi. 1614-cü ilin dekabrında Rusiya elçisi M.İ.Tixinov Səfəvi hökmdarı I Şah Abbasla burada görüşmüşdür. Bir sıra orta əsr səyyah və diplomatları öz yol qeydlərində Qızılağac haqqında məlumat vermişlər. Kəndin və qoruğun adı Qızılağac körfəzinin adı ilə bağlıdır. XIX əsrdə Qızılağac körfəzinin kənarında böyük ticarət əhəmiyyəti daşıyan liman mövcud olmuşdur.



Qızılağac dövlət təbiət qoruğu 1929-cu ildə Xəzər dənizi sahilinin cənub-qərbində 88,4 min hektar ərazidə köçəri, su, bataqlıq və çöl quşlarının qışlaması, artırılması və qorunması məqsədilə yaradılmışdır.

Ərazisi ətrafı su, bataqlıq və yarımsəhra bitkiləri ilə zəngindir. Qoruq 1976-cı ildə YUNESKO-nun siyahısına "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyəti olan sulu-bataqlıq yerlər haqqında" Konvensiyanın su bataqlıq regionunun biri kimi daxil edilmişdir. Qızılağac və Kiçik Qızılağac körfəzləri və onların sahil zolaqlarını əhatə edir. Respublikanın "Qırmızı Kitab"ına düşən quşların əksər növləri qoruqda və onun sərhəd ərazilərində müşahidə olunur.



Qızılağac dövlət təbiət qoruğunda 22 dəstədən və 248 növdən ibarət su, bataqlıq və çöl quşları mühafizə olunur. Qızılağac dövlət təbiət qoruğu köçəri quşların çoxalması üçün çox əhəmiyyətlidir.

**Masallı** – Eminli kəndinin də daxil olduğu inzibati rayon. Şimaldan Xəzər dənizinə birləşir. Lənkəran ovalığındadır. Cənubi-qərbdən Alaşar-Burovar dağları ilə əhatə olunub. İsti mineral bulaqları var. Rayonun ərazisindən Viləş çayı axır. Oykonim *Masal* (toponim) və *lı* aidlik, mənsubluq bildirən şəkilçidən düzəlibdir. Yaşayış məntəqəsini Cənubi Azərbaycanın **Masal** mahalından gəlmiş ailələr salmışlar. Oykonim *“Masaldan olanlar, Masaldan gələnlər, masallılar”* mənasındadır.




Tarixi mənbələrdən aydın olur ki, Masallı ərazisində qədim insanlar 15-20 min il bundan əvvəl yaşamışlar. Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" (1841), Mirzə Seyidəli Kazımbəy oğlunun "Cavahirnameyi Lənkəran" (1896), salnaməçi Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun "Əxbarnamə" (1882) əsərlərində, həmçinin bir sıra Avropa və rus səyyahlarının səyahətnamə qeydlərində Masallının tarixinə dair qiymətli məlumatlar öz əksini tapmışdır.

## EMİNLİNİN TARİXİ ŞƏXSİYYƏTLƏRİ

### *Emin və Bədəl Eminəlı oğulları*

***«İçərinizdə** insanları **yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar** (bu camaat), **həqiqətən nicat tapmış şəxslərdir".*** *"İmran ailəsi" surəsi, 104-cü ayə.*

XIX əsrin əvvəllərində Eminəlinin iki oğlu – **Emin** və **Bədəl** Şamaxı qəzasının Sarıtorpaq kəndindən Lənkəran qəzasının Mahmudlu kəndinə köçmüşlər. Ehtimal olunur ki, bu köçə səbəb o zaman Şamaxıda baş verən güclü zəlzələlər olmuşdur. Onu da qeyd edim ki, XIX əsrdə minlərlə əhalinin yaşadığı Sarıtorpaq kəndində indi heç kəs yaşamır və kənd demək olar ki, yer üzündən tamamilə silinibdir.

Emin Eminəli oğlu 1779-cu ildə doğulub, çoxlu var-dövlət sahibi olmuşdur. Həmçinin, o, öz var-dövlətindən Allah yolunda xərcləməkdən çəkinməzmiş. Odur ki, bu səxavətli insan kasıbların, yetimlərin, kimsəsizlərin ümid yerinə çevrilmişdir. Məhz bu səxavətinə və comərdliyinə görə də 1918-ci ildə Azərbaycanda Milli Hökumət qurulanda Mahmudlu camaatı Emin bəyin xatirəsini əbədiləşdirmək üçün kəndin adını dəyişib, Eminli qoydular. Həmin vaxt Emin Eminəli oğlunun ölümündən 70 ilə yaxın bir vaxt keçirdi.

Emin bəyin **Hacağa** (1838-ci il təvəllüd), **Paşa** (1844-cü il təvəllüd) və **İsmayıl** (1845-ci il təvəllüd) adında üç oğlu, **Hürü** (1823-cü il təvəllüd) adlı bizə məlum olan bir qızı olmuşdur. Hacağa kəndin əhalisi tərəfindən komendant və kəndin rəhbəri seçilmişdir.

**Bədəl Eminəli oğlu** da maddi cəhətdən zəngin, iman və səxavət sahibi olan bir mömin olmuşdur. Var-dövlətindən Allah yolunda xərclədiyinə görə camaat arasında böyük nüfuza malik olmuşdur. Onun xeyirxahlığını "Qurani-Kərim"dən aşağıdakı ayə ilə ifadə etmək olar:

***"Sevdiyiniz şeylərdən*** *(haqq yolunda)* ***sərf etməyincə savaba çatmarsınız. Şübhəsiz ki, Allah*** *(Onun yolunda)* ***xərclədiyiniz hər bir şeyi biləndir!"*** *"İmran ailəsi" surəsi, 92-ci ayə.*

Bədəl kişi də səxavət göstərdikcə həm Allah, həm də bəndələr tərəfindən sevilmişdir. Onun xeyirxah işlərini oğlanları **Ağaverdi** (1844-cü il təvəllüd) və **Əliverdi** (1845-ci il təvəllüd) davam etdirmişdir. Ağaverdinin oğlu **Bədəl** də atası və babası kimi səxavət əhli bir mömin olmuşdur. O, həm də tərəqqipərvər, maarifpərvər bir şəxsiyyət idi. Öz şəxsi mülkünün bir hissəsini könüllü şəkildə yeni fəaliyyətə başlayan rus-tatar məktəbinə verməklə, Mahmudlu və bölgə əhalisinin savadlanmasında çox böyük xidmətlər göstərmişdir. Qeyd edim ki, həmin dövrdə dünyəvi elmlər öyrədən bu məktəblər xalqın hesabına fəaliyyət göstərirdi. Məktəblər o kəndlərdə açılırdı ki, orada məktəbin fəaliyyətinə şərait yaradan (otaqla və maddi yardımlarla kömək edən) xeyriyyəçilər olsun. Bədəl Ağaverdi oğlu da məhz bu cür maarifpərvər xeyriyyəçilərdən idi. Ona görə də rus-tatar məktəbi ətraf kəndlər içərisində ancaq Mahmudluda açılmışdı. Qonşu kəndlərdən olan gənclər də təhsil almaq üçün bura üz tuturdular. Bu məktəb rus dilini təmiz bilən bir çox kadrlar hazırladı ki, sonralar həmin kadrlar dövlət orqanlarında mühüm vəzifələrdə çalışmaqla, öz xalqına, el-obasına fayda verən şəxsiyyətlərə çevrildilər. Bir sözlə, Bədəl bəyin və Emin nəslindən olan maarifpərvər xeyriyyəçilərin dəstəyi ilə fəa-

liyyət göstərən bu məktəb Mahmudlunun sosial, mədəni və elmi inkşafına çox böyük təkan vermişdir. *Mahmudlu* kəndinin adının *Eminli* olmasının səbəbi də Emin bəyin özünün və törəmələrinin bu kimi gözəl əməllərinin və xidmətlərinin nəzərə alınmasıdır.

Bədəl bəyin Əliqulu, Xanverdi, Tapdıq və Züleyxa adında övladları qalmışdır ki, onların da törəmələri bu gün Eminlidə yaşamaqda və ata-babalarının xeyirxah işlərini davam etdirməkdədirlər.

Maraqlıdır ki, eminli nəslinin qədim nümayəndələri kimi, bugünkü nümayəndələri də tərəqqipərvər və maarifpərvərdirlər. Sanki, bu xasiyyət onlara ata-babalarından genetik kodla ötürülmüşdür. Bir faktı qeyd etmək kifayətdir ki, Eminli kəndindəki orta məktəb yarandığı gündən burada dərs deyən müəllimlərin və rəhbərlik edən direktorların böyük əksəriyyəti Eminin və Bədəlin törəmələri olmuşlar. Bu gün də bu ənənə davam etməkdədir. Yeri gəlmişkən, hazırda Eminli kənd orta məktəbinin direktoru Sərxoş Nuriyev də Bədəl bəyin nəvəsidir. Onlar bu mərtəbəyə öz elmləri və qabiliyyətləri ilə yüksəlmişlər. Böyük alim və mütəfəkkir Əbül Əsəd ed-Dueli: "*Heç bir şey elmdən üstün deyildir. Çünki, sultanlar insan-*

*lara hökm edirlər; alimlər isə, sultanlara hökm edirlər"* – demişdir.

Loğman Peyğəmbər də oğluna bunu söyləmişdir: *"Ey oğlum! Dünyanın sevinc və nəşələrini təcrübə etdim, elmdən ləzzətli bir şey tapmadım".* Sonra isə: *"Dərvişlər, fəqir və yoxsullar elm sayəsində sultanlar süfrəsində otururlar"* – demişdir.

Eminli nəslinin nümayəndələri bu gün ölkəmizin və eləcə də qonşu dövlətlərin bir çox elm mərkəzlrində, mühüm dövlət vəzifələrində təmsil olunurlar.

## EMİNLİ KƏNDİ SOVETLƏŞMƏ DÖVRÜNDƏ

1917-ci ildə Mahmudlu və ətraf kəndərdə kəndlilər torpaq uğrunda mübarizə aparmağa başlamışdılar. Bölgədə tez-tez kəndli üsyanları baş verirdi. Hətta, qonşu Xırmandalı kəndinin camaatı 1917-ci ilin yazında kənd yoxsullarının ümumi yığıncağını çağıraraq, "Xırmandalı respublikası" yaradılması haqqında qərar çıxardılar və yaratdıqları müstəqil respublikanın rəhbərini seçdilər. 1918-ci ilin yanvar ayında Lənkəran qəzasının Xırmandalı, Mahmudlu, Qızılağac, Boradigah və digər kəndlərinin sakinləri torpaq komitəsi yaratdılar. Bu komitənin vəzifəsi kəndliləri torpaqla təmin etməkdən ibarət idi. Belə bir gərgin siyasi şəraitdə Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin silahlı qüvvələri 1918-ci ilin mart ayının 14-də Bakıdan gəmi ilə Lənkəran qəzasına göndərildi. Bu hərbi hissələr bölgəyə gəlib,

bolşevik təsirinin güclü olduğu Qızılağac və Nikolayevka ilə üzbəüz 3 kilometrlik sahildən uzaqda dənizdə dayandılar. Şaumyanın dəstələri Nikolayevkada yerləşməklə, bu kənddən olan malakan bolşeviklərlə birləşərək, ətraf kəndləri, o cümlədən Mahmudlu (Eminli) kəndini qarət etməyə başladılar. Martın 20-21-də (Novruz bayramı günü) və martın 30-da çox böyük hücumlar edərək, Eminlini və digər ətraf kəndləri talan edib, evləri yandırdılar. Sakinlərin anbarında olan taxılları, heyvanlarını, evlərində olan qiymətli əşyaları qarət edərək, Nikolayevka kəndindəki düşərgələrinə daşıyırdılar. Müqavimət göstərənlər yerindəcə güllələnirdi. Talan olunan mülklərdən biri də Kərbəlayi Allahverdinin mülkü idi. O, arvadını da götürərək, qaçıb, qonşu kəndlərdən birində gizləndi. Heç üç gün keçmədi ki, bu dərdə dözməyərək, ürəyi partladı və dünyasını dəyişdi. Nəhayət, Lənkəran qəzası (o cümlədən Mahmudlu kəndi) Şaumyanın və yerli rus-malakan birləşmələrinin hücumları qarşısında davam gətirə bilməyib onlara tabe olmaq məcburiyyətində qaldılar. Beləliklə, 1918-ci ilin aprelində qəzada bolşevik hökuməti quruldu. Ancaq, bu hökumətin ömrü cəmisi dörd ay çəkdi. Avqustun 1-də Azərbaycan Demokratik Cümhuriyyətinin ordusu bölgəni bolşeviklərdən geri aldı. Lakin, bu hökumətin də ömrü uzun

olmadı. 1919-cu ilin aprelin 25-də Azərbaycanda ilk dəfə olaraq Lənkəran qəzasında (o cümlədən Eminli də daxil olmaqla) Sovet Hökuməti quruldu. Bu dəfə bolşeviklər bölgəni üç ay üç gün əllərində saxlaya bildilər. Elə həmin ilin iyulunda yenidən Azərbaycan Milli Hökumətinin qüvvələri qəzanı Cümhuriyyətin tərkibinə keçirdilər. Beləliklə, Eminli kəndi iki ilin içəriində dəfələrlə əldən-ələ keçdi. Nəhayət, 1920-ci iln aprelində XI rus ordusunun Azərbaycana daxil olması ilə Demokratik Cümhuriyyət devrildi. Bundan sonra Azərbaycanın hər yerində olduğu kimi Eminlidə də Sovet Hökuməti quruldu və o, 70 il davam etdi.

## EMİNLİ MƏSCİDİ

VII əsrdə İslam dini yayılmağa başlayanda, Həzrət Peyğəmbərimiz tərəfindən göndərilmiş nümayəndələr hər vilayətdə olduğu kimi, Mahmudlu kəndində də bu dinin gözəlliklərini xalqa təbliğ etməyə başlamışlar. Onlar həm də yerli əhaliyə kitab (“Quran”) oxumaq üçün ərəb əlifbasını, əxlaq, şəriət, riyaziyyat və digər kitabları tədris edirdilər. Diqqətinizi vacib bir məqama da cəlb edim ki, müqəddəs “Quran”ın ilk ayəsi “Oxu” ayəsi ilə başlayır. Bu fakt, Allahın elmə və elm adamlarına necə böyük qiymət verməsinin göstəricisidir. Odur ki, məscidlərdə ibadət etməklə, Quran oxumaqla yanaşı, həm də mollaxanalar və mədrəsələr də fəaliyyət göstərirdi ki, burada insanlara savad öyrədilirdi. Mollaxanalar ibtidai, mədrəsələr isə, orta təhsil verirdilər.

Tarixi mənbələr göstərir ki, orta əsrlərdə Mahmudlu və onun ətrafında olan kəndlərdə məscidlərin nəzdində və din xadimlərinin evlərində mollaxanalar fəaliyyət göstərmişdir. Buranı bitirən məzunların çoxusu öz təhsillərini Azər-

baycanın, Yaxın və Orta Şərqin bir çox nüfuzlu elm mərkəzlərində davam etdirmişlər. Sonradan onlar doğulduğu kəndə qayıdaraq, öyrəndikləri elmi xalqa təbliğ etmişlər.

Azərbaycanda Sovet hökumətinin qurulması ilə əlaqədar başqa kəndlərdə olduğu kimi, Eminlidə də bu işlərə bir müddət ara verildi. Repressiyalarla əlaqədar din xadimləri fəaliyyətlərinə ara verməli oldular və yaxud gizli fəaliyyətə keçdilər. Nəhayət, 1962-ci ildə kəndin mollası Qulamhüseyn kişinin ağsaqqallığı ilə kənd sakinlərindən vəsait toplanaraq, kənddə çiy kərpicdən məscid tikintisinə başladılar. Molla Qulamhüseyn ömrünü başa vurduqdan sonra onun yetişdirdiyi Gülmalı kişi məsciddə mollalıq etdi. Hal-hazırda Eminli məscidinin mollaları Hacı Rəbbi və Hacı Hətəm əmioğlanlarıdır.



## EMİNLİ KƏND MƏKTƏBİ

Qədim tarixə malik olan Eminli (Mahmudlu) kəndində insanlar hələ ta qədimdən yazıb-oxumağı kənddə fəaliyyət göstərən mollaxana və mədrəsədə öyrənirdilər.

1801-ci ildə çar Rusiyasının Cənubi Qafqaza, eləcə də Azərbaycana başlanan hərbi yürüşü az sonra – 1813-cü ildə "Gülüstan" və 1828-ci ildə "Türkmənçay" müqavilələrinin bağlanması ilə başa çatdı ki, həmin müqavilələrə əsasən Azərbaycan xanlıqlar müstəqilliyini itirərək, Rusiya və İran arasında iki hissəyə bölündü. Bu hadisədən sonra Azərbaycanda rus dilində təhsil verən məktəblər açmaq zərurəti meydana gəldi. Çünki, çar hökumətinə rus dilini bilən savadlı və sədaqətli kadrlar lazım idi.

Tiflis hərbi qubernatoru Sipyaqin Zaqafqaziyanın bir sıra şəhərlərində, o cümlədən Azərbaycanın qəza mərkəzi olan şəhərlərində qəza məktəbləri açmaq fikrini irəli sürmüşdü. İlk belə məktəb 1830-cu ildə Şuşa şəhərində açılmışdı. Bundan

bir il sonra isə, Nuxa qəzasında məktəb təsis olundu.

Bu məktəblərdə dərslər rus dilində aparılırdı. Bunun əsas səbəbi proqrama uyğun dərs keçəcək, rus dilini bilən müəllim kadrların çatışmaması idi. Bu problemi həll etmək üçün XIX əsrin 60-cı illərində Şamaxı, Şuşa, Naxçıvan və Nuxa qəza məktəbləri nəzdində Azərbaycan dilində təhsil verən qısamüddətli pedaqoji kurslar açıldı. 1876-cı ildə fəaliyyətə başlayan Qori müəllimlər seminariyasında da Azərbaycan şöbəsi açıldı. Bu şöbə fəaliyyət göstərdiyi 40 il ərzində 250-dən artıq müəllim hazırlamışdır. Bu müəllim kadrların fədakarlığı sayəsində Azərbaycan kəndlərində maariflənmə işi sürətlənməyə başladı.

Lənkəran qəzasının böyük kəndlərində rus təhsil sistemi ilə dərs keçən xalq məktəbləri XIX əsrin 80-ci illərindən yaranmağa başladı. Həmin dövrdə Mahmudlu kəndində də belə ibtidai məktəbin əsası qoyuldu. Məktəb vətənpərvər və maarifpərvər xeyriyyəçi ***Bədəl Eminəli oğlu****nun* evində yerləşirdi. Kənd əhalisi bu rus-tatar məktəbində təhsil almağa başladı. Şamaxının Sarıtorpaq kəndindən olan bir müəllim Maarif Nazirliyi tərəfindən ezam olunaraq, Mahmudlu məktəbinə müdir təyin olundu. Həmin müəllim Mahmudluya

gələndən sonra, öz həmkəndliləri olan Emin bəyi və onun övladlarını tanıdı.

Rusiya Xalq Maarif Nazirliyinə tabe olan bu məktəblər əsasən əhalinin gücü ilə saxlanılırdı. Məktəbin proqramında Azərbaycan və rus dilləri, şəriət, hesab, rus dilində oxu və yazı əsas yer tuturdu.

Xalq məktəblərinin açılması Mahmudlunun mədəni həyatında görünməmiş hadisə idi. Professor Ə. Ağayevin o dövrdə dediyi kimi, "Rus məktəblərinin ruslaşdırma siyasəti daşımasına, sinfi və silki xarakterinə baxmayaraq, o dövr Azərbaycanı üçün yeni bir hadisə idi. Çünki, bu məktəblərdə mollaxanalardan fərqli olaraq, təlimdə yeni üsullar tətbiq olunur, dünyəvi elmlər öyrədilirdi. Höccələmə üsulu əvəzinə səs üsulu əlifba təlimində əsas götürülürdü".

Lakin bu məktəblərdə xalqın tələbinə cavab verməyən cəhətlər də vardı. Məktəbin əsas nöqsanı o idi ki, dərslər rus dilində aparılır, ana dili sıxışdırılırdı. Bu kimi faktlar o dövrün maarifçi ziyalılarını çox narahat edirdi və onlar ana dilini inkişaf etdirmək uğrunda mübarizə aparırdılar. Həmin dövrdə Xaçmaz məktəbinin müdiri R. Əfəndiyev yazırdı ki, "Ana dili bütün elmləri öyrənmək üçün əsas silahdır. Ana dilini bilmədən xarici dilləri öyrənmək mümkün deyildir. Biz

xarici dilləri öyrənməyin əleyhinə çıxmırıq. Xüsusən uşaqlar rus, fars və ərəb dillərini bilməlidirlər, ancaq ana dilindən sonra”.

Görkəmli maarifçi F. Ağazadə XX əsrin əvvəllərində yazırdı: “Bizə elə bir quruluş lazımdır ki, orada hər bir xalq öz müqəddəratını özü həll etsin, öz məktəbi olsun, uşaqlarını ana dilində həmin məktəbdə oxutsun”.

Bu kimi hallar 1918-ci ilin 28 mayına – ölkəmiz müstəqillik qazanana kimi davam etdi. Nəhayət, həmin tarixdə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) elan edildi. AXC yarandığı gündən xalqın maariflənməsini ön plana çəkdi və Azərbaycan dili dövlət dili elan olundu. Bu hadisədən sonra Azərbaycanın bütün məktəblərində dərslər ana dilində aparılmağa başladı.



1920-ci illərin axırlarında Eminli kəndində Azərbaycan dilində dərs verən iki illik dünyəvi məktəb açıldı. Hal-hazırda kənddə Həbib Sadıqov adına tam orta məktəb fəaliyyət göstərir. Məktəbin kollektivi çox böyük nailiyyətlər qazanmışdır. Belə ki, hər buraxılış ilində məzunların 40 faizdən çoxu ölkənin nüfuzlu ali məktəblərinə qəbul olunub (son illərdə məzunlar arasında qızların sayı artmaqdadır). 2012-ci ildə buraxılış-test imtahanlarının nəticələrinə görə Eminli məktəbi rayon üzrə birinci yeri tutaraq, rayon rəhbərliyinin fəxri fərmanına layiq görülmüşdür. Məktəbin müəllim və şagird kollektivi rayonda keçirilən bütün ictimai-siyasi və elmi-mədəni tədbirlərdə fəal iştirak edirlər. Bütün bunların nəticəsidir ki, məktəbin direktoru Sərxoş Nuriyev Respublika Prezidentinin sərəncamı ilə "Respublikanın Əməkdar Müəllimi" fəxri adına layiq görülmüşdür.

Məktəbin yarandığı gündən, ona aşağıdakı şəxslər rəhbərlik etmişlər:

İbrahimov Surxay
Hüseynov Abasqulu
Verdiyev Əlimərdan
Nuriyev Xudaverdi
Hətəmov Həmzəli
Eminov Ərəstun
Nuriyev Sərxoş

# MÜƏLLİMLƏRİMİZ


Ağayev Adil


Eminova Tamara


Allahverdiyev Vəzir


Qəribov Yasər


Eminova Nazilə


Nuriyev Samit


Allahverdiyev Süleyman


Mehdiyev Abuzər


Abdinov Xeyrəddin


İsmayılov İsmayıl


Nüriyev Sərxoş


Xədilov Vidadi


İsmayılov Ziyafət


Musayeva Bircəxanım


Eminbəyli Arastun


Təhməz Əmirov


Əmənli Famil


Nuriyev Xudaverdi

## EMİNLİ KƏNDİNDƏ KOLXOZ DÖVRÜ

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, bütün kəndlərdə olduğu kimi, Eminlidə də kolxoz yaradıldı. Burada 1933-cü ildə əsası qoyulan ilk kolxoz *"Rot-front"* adlanıb və ilk sədri Əmralı Mehdiyev olub. II Dünya müharibəsi dövründə kolxoz "*416-cı Taqanroq diviziyası*" adlanıb. 1950-ci ildə isə qonşu kəndlərin kolxozları ilə birləşərək "*Varlı həyat*" adlandırılıb. 1997-ci ilə qədər fəaliyyət göstərən kolxozda iqtisadiyyatın əsasasını heyvandarlıq, taxılçılıq, tərəvəzçilik, atçılıq təşkil etmişdir.



Kolxozun fəaliyyətdə olduğu müddətdə ən ağır dövrü 1940-cı illərdə olmuşdur. Belə ki, kəndin bütün kişiləri II

Dünya müharibəsinə göndərildiyindən, kolxoz təsəərrüfatının bütün ağırlığı qadınların və uşaqların üzərinə düşmüşdür. Eminli kənd sakini, 1931-ci il təvəllüdlü **Nuriyeva Bəsti Şirməmməd qızı** həmin illəri belə xatırlayır.

- 1941-ci ildə atam müharibəyə getdi. Biz 10 uşaq anamın öhdəsində qaldıq. Çox ağır bir dövr idi, insanlar aclıq çəkirdilər. Odur ki, 12 yaşımdan digər bacı-qardaşlarımla birlikdə kolxozda işləməyə başladım. Biz kolxozda buğda, çəltik, tərəvəz əkib-becərirdik. O vaxtlar texnika yox dərəcəsində idi. Bütün işləri əllə görürdük. Taxılı oraqla biçib dərz bağlayırdıq. Sonra dərzləri arabaya yükləyib, xırmana daşıyırdıq. O vaxt kolxozun bir kombaynı vardı, o da indiki kimi sahədə gəzənlərdən deyildi; ancaq xırmanda dayanırdı, dərzləri onun bunkerinə əlimizlə atırdıq, buğdanı samandan ayırırdı.



Gündüzləri tarlada, zəmidə məhsul becərir, gecələr də paltar yuyur, çörək bişirir, nehrə çalxayır, başqa ev işlərini görürdük. Bu cür zəhmətlə məhsul əkib becərsək də, ondan doyunca yeyə bilmirdik. Topladığımız məhsulun demək olar hamısını dövlət aparırdı. Kolxozçuya verilən cüzi məhsulla il ərzində doyunca çörək yemək mümkün deyildi. Ona görə də həmin illərdə insanlar aclıq çəkirdilər. Xanlar adında əzazil bir kolxoz sədri vardı, o da bir tərəfdən camaata zülm edirdi. Taxıl biçilib qurtardıqdan sonra uşaqlar sahəni gəzərdilər ki, yerə tökülən sünbülləri yığıb gətirsinlər. Xanlar onları tutub, topladıqları sünbülləri əllərindən alırdı. Özlərinə də vəhşicəsinə cəzalar verirdi. Oğlanların şalvarlarını soyundurub, qırmancla çılpaq bədənlərinə o qədər döyürdü ki, uşaqlar günlərlə yataqdan qalxa bilmirdilər. Ona görə də Allah sonralar ona çox böyük bəlalar verdi...



Bəsti xala gəlini Elnurə xanımın gətirdiyi ətirli çaydan bir qurtum içərək, söhbətinə davam edir. Deyir bu

cür əzab-əziyyətlə günlər keçirmişik. Bütün çətinliklərə baxmayaraq, on uşaq – dörd qız, altı oğul böyüdüb Bəsti ana. Oğlanlarının hamısına Ali təhsil verib. Övladları da sağ olsunlar ki, ananın zəhmətini itirməyiblər; vətənə, xalqa layiqli övlad olublar, el-obanın xeyir-şərində cani-dildən yarıyırlar.

## *Dövləti pir bilin*

Bəsti ana deyir ki, həmişə uşaqlarıma nəsihət verərkən deyirdim ki, *"Dövləti pir bilin"*. Dünya görmüş bu ağbirçəyin bir cümləlik nəsihətində bir kitablıq hikmət, fəlsəfi məna gizlənir. Bu fəlsəfəni xırdalasaq, böyük bir kitab yazmaq olar. Qısaca olaraq onu deyim ki, insanın hər hansı pirə, seyidə inamı, sevgisi nə qədər çox olarsa, onun kəramətindən də bir o qədər çox faydalanar. İnsan cəmiyyətinin də idarəçiliyi həmin bu prinsipə uyğundur. Yəni, hər bir vətəndaşın dövlətdən faydası onun dövlətə olan sevgisi, xidməti, sədaqəti qədərdir.

Məhz belə uzaqgörən və doğru-düzgün nəsihətlərin nəticəsidir ki, Bəsti ananın övladları vətənpərvər, dövlətə sədaqət, sevgi ruhunda böyüyüblər. Dövlət də onların bu əqidəsini qiymətlən-

dirərək, mühüm dövlət vəzifələrini onlara etibar edib.

Biz də öz növbəmizdə sinəsini orden və medallar bəzəyən qəhrəman Bəsti anamıza uzun ömür, cansağlığı və zəhmətlə böyütdüyü övladlarının həmişə bəhrəsini görməyi arzulayırıq.

Eminli kəndində kolxoz dövründə təsərrüfata aşağıdakı şəxslər rəhbərlik etmişlər:

Mehdiyev Əmralı
Əmənov Qaraxan
Nəciyev Məmməd
Ələkbərov Xanlar
Xəlilov Nüsrət
Əmirov Sübhan
Abdullayev Qəni
Həsənov Həmzəli
Kərimov Ağabala
Fəttahov Fəttah
Əsgərov Əziz
Əmənov Davud

# EMİNLİ KƏNDİNİN BƏZİ GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ VƏ TANINMIŞ ZİYALILARI



**Eminov Hacı Fərrux Fərhad oğlu** – 1924-cü ildə Eminlidə anadan olub. Atası Fərhad bəy nəslindən (Emin bəyin nəvəsi) olduğundan səsi alınaraq, bir neçə dəfə həbs edilmişdir. Bu səbəbdən Fərruxun uşaqlığı çox əziyyətli olmuşdur. Bütün çətinliklərə baxmayaraq qardaşı Dövlətlə birlikdə ali təhsil almağa nail olmuşdur. F. Eminov 1953-cü ildə Bakı Statistika texnikumunu, 1958-ci ildə isə, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 1953-1955-ci illərdə Masallı rayon statistika idarəsində müfəttiş, 1956-cı ildən isə, Eminli kəndindəki "Varlı həyat" sovxozunda iqtisadçı və digər vəzifələrdə işləmişdir.

1941-1945-ci illərdə II Dünya Böyük Vətən müharibəsində iştirak edən Fərrux Eminov iki dəfə yaralanıb.

Bütün mənalı ömrünü elmə, zəhmətə, el-obanın sosial inkişafına həsr edən Hacı Fərrux el ağsaqqalı kimi bölgədə böyük nüfuz sahibi olmuşdur. O, öz nüfuzundan istifadə edərək, Eminlinin inkişafında bir çox işlər görmüşdür. Belə ki, o, altmışıncı illərdə kənd sakini Nurməmməd kişi ilə birlikdə kənd qəbiristanlığının hasara alınmsında və Eminlidəki məscidin tikilməsində ağsaqqallıq edərək, camaatı bu xeyirxah işlərə səfərbər etmişdir.

Hacı Fərrux sovetlər dönəmində Qarğalıq inzibati ərazi vahidliyində yoldaşlıq məhkəməsinin sədri olmaqla, insanların ailə, qonşuluq münasibətlərinin qorunmasında mühüm rol oynamışdır.

Hacı Fərrux Kifayət xanımla ailə qurmuş, on övlad böyüdərək, hamısına ali təhsil vermişdir. Övladları professor, həkim, müəllim və s. elm adamları olmuşlar. Hacı Fərrux 2009-cu ildə Allahın rəhmətinə qovuşmuşdur.

**Həsənov Məmmədhüseyn Lətif oğlu** – 1927-ci ildə Eminli kəndində doğulub. 1932-ci ildə Eminli kənd iki illik ibtidai məktəbi bitirdikdən sonra ibtidai təhsilini davam etdirmək üçün qonşu Qarğalıq məktəbinə daxil olub. Dördüncü sinfi burada bitirdikdən sonra Salyan rayonunun Qədimkənd səkkizillik məktəbinə daxil olub. Buranı bitirən il  Dünya müharibəsi başladığından,



təhsilini davam etdirmədən Eminliyə qayıdıb. Həmin vaxtdan kəndlərindəki *"Rot-front"* kolxozunda qeyri-rəsmi olaraq hesabdar köməkçisi kimi fəaliyyət göstərib. 1942-ci ildə Masallı rayonlararası kolxoz məktəbinin üç aylıq hesabdarlıq kursunu bitirərək, yenidən "Rot-front" kolxozunda rəsmi olaraq hesabdar müavini, altı aydan sonra isə, baş hesabdar işləməyə başlayıb.

1949-1959-cu illərdə Masallı rayon Komsomol Komitəsinin II və I katibi vəzifələrində çalışıb. Həmin dövrdə eyni zamanda Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini qiyabi yolla bitirib.

1959-1960-cı illərdə Masallı rayon mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışıb. Bundan sonra isə, 16 il müddətində Masallı Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədr müavini və sədri vəzifələrində çalışıb.

1976-cı ildən Masallı rayon rabitə şöbəsində rəis (17 il), daha sonra isə mühəndis vəzifələrində çalışıb. Bu illər ərzində bir çox orden və medallarla təltif olunub. 2009-cu ildən təqaüddə olan

Məmmədhüseyn müəllim həm də Prezident təqaüdçüsüdür.

**Eminbəyli Ramazan Hacı Fərrux oğlu** – 1946-cı ildə Eminli kəndində anadan olub. İlk təhsilini Eminli kənd 7 illik məktəbdə almış, Masallı şəhər N.Nərimanov adına 2 saylı orta məktəbini bitirmişdir.



1965-ci ildə ADU-nun fizika fakültəsinə qəbul olunmuş, 1970-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin il Ramazan Eminbəyli fakültə elmi şurasının zəmanəti ilə nəzəri fizika ixtisası üzrə aspiranturaya qəbul olunmuşdur. Aspiranturanı bitirdikdən sonra təyinatla ADU-da saxlanılmış, 1974-cü ildən fizika fakültəsi "Bərk cisimlər fizikası" kafedrasında əvvəlcə baş müəllim, dosent, sonralar professor kimi mühazirələr oxumuşdur.

R.Eminbəyli 1977-ci ildə ADU-da *"Keyn yarımkeçiricilərində və yarımkeçirici lövhələrdə termomaqnit hadisələrinin Kvant nəzəriyyəsinə dair"* namizədlik dissertasiyasını müdafiə edib alimlik dərəcəsini almışdır.

1996-cı ildə Türkiyənin 100-cü il universitetinin dəvətilə bu ölkəyə getmiş və ömrünün sonuna kimi universitetdə tələbə və aspirantlara mühazirələr oxumuşdur.

O, 1997-ci ildə Türkiyədə *"Müxtəlif səth potensiallı yarımkeçirici lövhələrdə kenetik effektlərin Kvant nəzəriyyəsi"* mövzusu üzrə doktorluq müdafiəsi etmiş və fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini almışdır.

Bu işlə əlaqədar dünyanın bir çox alimləri ilə, o cümlədən Amerikanın İndiana ştatından İ.Krimer, Rumıniyalı D.Antonion, Polşalı Z.Mariya, Alman A.Sanitski ilə əməkdaşlıq etmişdir.

Elmi çalışmalarını keçmiş Sovetlər birliyinin aparıcı elm mərkəzlərində - Bakı, Moskva, Sankt-Peterburq, Kiyev, Riqa və digər şəhərlərdə davam etdirmişdir.

Fizika-riyaziyyat elmləri doktoru, professor Ramazan Eminbəyli elmi fəaliyyəti dövründə Azərbaycan və Türkiyədə 13 elmlər namizədi və 3 elmlər doktoru yetişdirmiş, onların müdafiəsinə rəhbərlik etmişdir.

2011-ci ildə ömrünün 65-ci yaşında Allahın rəhmətinə qovuşan Ramazan müəllimin yurdunda iki övladı qaldı. Oğlu Fərhad iqtisadçı, qızı Sədaqət həkimdir. Həyat yoldaşı Afaq xanım hal-hazırda Bakı Dövlət Universitetinin kitabxanasında sektor müdiri vəzifəsində çalışır.

Alimin keçdiyi həyat yolu, apardığı nəzəri elmi işləri gənc alimlərə örnəkdir. Onun xatirəsi tələbələrinin və el-obanın qəlbində həmişə yaşayacaqdır.



**Nuriyev Dilxoş Əliqulu oğlu** – 1961-ci ildə Masallı rayonunun Eminli kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda təhsil alıb. Daha sonra Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq fakultəsini fərqlənmə diplomu ilə bitirib. 1988-1991-ci illərdə Kiyev İnşaat Mühəndisləri İnstitutunda aspiranuranı bitirmiş, və elmi işini müvəffəqiyyətlə müdafiə edərək, İqtisad elmləri namizədi alimlik dərəcəsini almışdır.

Əmək fəaliyyətinə 1984-cü ildə Bakı Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin Elmi-bərpa idarəsində mühəndis vəzifəsində başlamışdır. 1993-cü ilə qədər həmin idarədə Baş mühəndis və Rəis vəzifələrində çalışıb.

-1993-cü ildən 1996-cı ilə qədər Nərimanov Rayon İcra Hakimiyyətində mühəndis, baş mütəxəssis;

-1996-2001-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin Baş Əsaslı Tikinti İdarəsində rəis müavini;

-2001-2007-ci illərdə Bakı Şəhər Dövlət Ekspertiza Mərkəzinin direktoru vəzifələrində çalışıb.

2007-ci ildən Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində işləyir. Hal-hazırda həmin Komitənin Şəhərsalma nəzarəti şöbəsinə rəhbərlik edir.

Uzun müddət dövlət qulluğunda çalışmaqla Dövlət Qulluğunun müşaviri, Respublika Memarlar İttifaqının üzvü, İqtisadiyyat üzrə fəlsəfə doktorudur.

Dilxoş Nuriyev 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif edilmişdir. Dörd kitabın və onlarla məqalənin müəllifidir.

O, həm də gözəl ailə başçısı, qayğıkeş babadır; iki övladı, iki nəvəsi var. Qızı **İlahə** Bakı Dövlət Universitetinin Psixologiya fakultəsini (2014) bitirib. Hal-hazırda Azərbaycan Tibb Universitetində çalışır. Oğlu **İlham** isə, İngiltərədə memarlıq ixtisası üzrə təhsil alır, V kurs tələbəsidir.



**Nuruyev Sərxoş Əliqulu oğlu** – 1958-ci ildə Eminlidə anadan olub. Orta məktəbi öz kəndlərindəki səkkizillik və qonşu Qarğalıq kəndindəki tam orta məktəbdə bitirib. Daha sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə (1980) bitirib. Həmin ildən Eminli və Qarğalı kənd məktəblərində pedaqoji fəaliyyətə başlayıb. 1992-ci ildən bu günədək H. Sadıqov adına Eminli kənd tam orta məktəbində direktor vəzifəsində çalışır. Rəhbərlik etdiyi müddətdə məktəb kollektivi çox böyük nailiyyətlər qazanmışdır. Belə ki, hər buraxılış ilində məzunların 40 faizdən çoxu ölkənin nüfuzlu ali məktəblərinə qəbul olunub (son illərdə məzunlar arasında qızların sayı artmaqdadır). 2012-ci ildə buraxılış-test imtahanlarının nəticələrinə görə Eminli məktəbi rayon üzrə birinci yeri tutaraq, rayon rəhbərliyinin fəxri fərmanına layiq görülmüşdür. Məktəbin müəllim və şagird kollektivi rayonda keçirilən bütün ictimai-siyasi və elmi-mədəni tədbirlərdə fəal iştirak edirlər. Sərxoş müəllim pedaqoji bilik və bacarıqlara, pedaqogikanın aparıcı qanunauyğunluqlarına və prinsip-

lərinə, iş prosesinin optimallaşdırılması yollarına dərindən bələddir. Rəhbərlik etdiyi kollektivdəki müəllimlərin peşə ixtisas və ümumi mədəni səviyyəsinin yüksəldilməsinə qayğı ilə yanaşır. Pedoqoji və metodiki ədəbiyyatlardan, qəzet və jurnallardan, həmkarlarından mütərəqqi təlim texnologiyalarının və qabaqcıl iş nümunələrinin öyrənilməsinə xüsusi səy göstərir. Orjinal iş üsulu vardır. İş təcrübəsi həmkarları tərəfindən təqdir olunur. Bütün bunların nəticəsidir ki, Sərxoş Nuriyev respublika Prezidentinin sərəncamı ilə "Respublikanın Əməkdar Müəllimi" fəxri adına layiq görülmüşdür. O, ilk gündən pedoqoji kollektivin inam və etibarını qazanmışdır. Masallı rayonunun qabaqcıl məktəb direktorlarından biri kimi tanınır.

Ailəlidir, iki oğlu var. Böyük oğlu **Valid** Dövlət Neft Akademiyasını bitirərək, neft mühəndisidir. İkinci oğlu **Samid** valideynlərinin yolunu davam etdirərək, Eminli məktəbində tarix-coğrafiya müəllimidir.

**Eminbəyli Saleh Hacı Fərrux oğlu** – 1951-ci ildə Eminlidə anadan olub. 1966-da Eminli kənd səkkizillik məktəbini, 1968-ci ildə isə, Masallı şəhər 2 saylı orta məktəbini bitirib. 1970-1977-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun Tibb profilaktika fakültəsində təhsil alıb. Əmək fəaliy-



yətinə təyinatla Masallı rayon Gigiyena və Epidemiologiya Mərkəzinin laboratoriyasında həkim toksikoloq kimi başlayıb. 1982-ci ildən hal-hazıra qədər həmin Mərkəzin Sanitariya Şöbəsinin müdiri vəzifəsində çalışır.

1989-cu ildə Rostov şəhərində Həkimləri Təkmilləşdirmə İnstitutunda 4 aylıq kursda olmuş, həkim-epidemioloq ixtisasına yiyələnmişdir. Ali kateqoriyalı həkimdir. Ailəlidir, bir övladı var.

Həyat yoldaşı **Züleyxa** xanım 1993-cü ildə Azərbaycan Dövlət Universitetinin kimya-biologiya fakültəsini bitirmiş, hal-hazırda Masallı şəhər 3 saylı orta məktəbində ixtisası üzrə müəllimə işləyir.

Qızı **Şəlalə** Azərbaycan Universitetinin İqtisadiyyatın idarəolunması fakültəsinin III kurs tələbəsidir.

Həkim Eminbəyli Saleh rayonun ictimai həyatında fəal iştirak edir. İşlədiyi kollektivin hörmətini qazanmışdır.



**Nuriyev Zakir Əliqulu oğlu** – 1954-də Eminlidə anadan olub. Orta məktəbi bitirdikdən (1972) sonra, Sumqayıt Tibb Texnikumuna daxil olub. 1974-cü ildə texnikumu bitirərək, Masallı rayon Gigiyena və Epidemiologiya Mərkəzində uşaq və yeniyetmə şöbəsində işə başlayıb. Hal-hazırda həmin vəzifədə çalşır. Nümunəvi fəaliyyətinə görə rəhbərlik tərəfindən bir çox mükafatlarla təltif olunub. Ailəlidir, beş övladı var.



**İsmayılov İsmayıl İsa oğlu** – 1962-ci ildə Eminlidə anadan olub. 1979-cu ildə orta məktəbi bitirərək, Azərbaycan Pedoqoji İnstitutuna daxil olub. Buranı bitirdikdən (1984) sonra, qonşu Qədirli kənd məktəbində riyaziyyat fənnini tədris etməyə başlayıb. Daha sonra Köçəkli orta məktəbində (1989-90) pedoqji fəaliyyətini davam etdirib. Hal-hazırda Eminli kənd tam orta məktəbində riyaziyyat fənnini tədris etməklə yanaşı,

həm də dərs hissə müdiridir. 2012-ci ildə "İlin ən yaxşı müəllimi" fəxri adına layiq görülüb. İsmayıl müəllim dərslərində şagirdlərin fəal dərketmə mövqeyinə istinad edir. Onları tədris fəaliyyətinə həvəsləndirmək üçün müxtəlif iş üsullarından istifadə edir. Çalışır ki, uşaqlar biliyi konkret məsələlərin həllində öyrənsinlər. Bu məqsədlə praktiki işlərdən – paylama materiallarından, məşğələlərdən və s. istifadə edir

Ailəlidir, üç övladı var. Oğlu **Emil** Azərbaycan Texnologiya Universitetini bitirib. Bank sektorunda çalışır. Digər oğlu **Samir** Odlar Yurdu Universitetinin qaz mühəndisliyi fakultəsini bitirib, hazırda xtisası üzrə çalışır. Kiçik oğlu **Ziya** Azərbaycan Turizim və Menecment Universitetinin ikinci kurs tələbəsidir.

İsmayıl müəllim vətənpərvər ziyalı olaraq, həm tələbələrinin, həm də el-obanın rəğbətini qazanmışdır.

**Eminbəyli Arastun Hacı Fərrux oğlu** – 1953-cü ildə Eminli kəndində anadan olub. 1968-ci ildə Eminli kənd səkkizillik məktəbini, 1972-ci ildə isə, Lənkəran Pedaqoji texnikumunu bitirib. Həmin ildən pedaqoji fəaliyyətə başlayıb.

1982-ci ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirib. Həmin



ildən Eminli natamam orta məktəbində müəllim, 1982-ci ildən isə həmin məktəbin direktoru vəzifəsində işləməyə başlayıb.

Arastun Eminbəyli 1993-1994-cü illərdə Masallı rayon İcra Hakimiyyəti aparatında Ərazi Hakimiyyət və İdarəetmə orqanları ilə iş üzrə şöbəsinin müdiri, 1994-1995-ci illərdə Masallı rayon Əmək və Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru vəzifəsində çalışmışdır. Bir neçə il Eminli bələdiyyəsinin üzvü və sədri kimi fəaliyyətləri olub.

1996-cı ildən hal-hazıra qədər H. Sadıqov adına Eminli kənd tam orta məktəbində riyaziyyat müəllimi və psixoloq kimi fəaliyyət göstərir. Arastun müəllim özünün şəxsi təhsilinə daim diqqət yetirir, pedoqoji mətbuatda dərc edilmiş müvafiq məqalələri, son illərdə çap olunmuş əsərləri, tövsiyələri, testlər haqqında yazıları müntəzəm izləyir, özünə fayda verən materialları gündəlik işində tətbiq etməyə çalışır. Öz iş üsullarını yeniləşdirməyə, yeni təlim texnologiyalarından istifadə etməyə səy göstərir.

Ailəlidir, üç övladı var. Qızı **Türkan** 2014-cü ildə Sumqayıt Dövlət Universitetinin riyaziyyat

fakültəsini bitirib. Oğlu **Elturan** Naxçıvan Dövlət Universitetinin hüquq fakültəsinin III kurs tələbəsidir. Digər oğlu **Elbrus** Sumqayıt Dövlət Universitetinin mühasibat uçotu-audit fakültəsinin III kurs tələbəsidir.



**İsmayılov Ziyafət İsa oğlu** – 1952-ci ildə Eminlidə anadan olub. Orta məktəbi Eminli və Həsənli məktəblərində bitirərək, 1973-də Azərbaycan Pedoqoji İnstitutunun Tarix fakultəsinə daxil olub. Pedoqoji fəaliyyətinə Qarğalıq kənd orta məktəbində tarix fənnini tədris etməklə başlayıb. Bir müddət Köçəkli orta məktəbində, 1982-ci ildən isə, Eminli kənd orta məktəbində fəaliyyətini davam etdirir. Ziyafət müəllim öz dərslərində əyani və texniki təlim vasitələrindən yaradıcılıqla istifadə edilməsi, müxtəlif metod, forma və vasitələrdən, diyarşünaslıq materiallarından istifadə edilməsi üçün ciddi axtarışlar aparır, həmkarları ilə məsləhətləşmələr keçirir, öz orjinal düşüncələri ilə fərqlənir. O, məktəbdə nümunəvi tarix kabineti yaratmışdır. Ziyafət İsmayılov ömrünün 40 ildən

çoxunu gənc nəslin təlim-tərbiyəsinə həsr edib. Bu gün də gənclik həvəsi ilə çalışır. Müstəqil Azərbaycan cəmyyətinin layiqli üzvlərinin yetişməsi üçün öz səy və təcrübəsini əsirgəmir.

Ziyafət müəllim həm də istedadlı şair kimi tanınır. Yazdığı şeirlər dövrü mətbuatda vaxtaşırı çap olunur. Haqsızlığa qarşı barışmaz olduğundan, 1999-cu ildə seçilldiyi Eminli bələdiyyəsinin sədri vəzifəsindən cəmi bir il sonra istefa verib. Dəyərli ziyalı və gözəl insan olan Ziyafət müəllim yaşadığı bölgədə böyük nüfuza malikdir.



**Hətəmov Həmzəli Həmzə oğlu** – 1948-ci ildə Eminlidə anadan olub. Azərbaycan Pedoqoji İnstitutunun Coğrafiya fakultəsində (1966-1970) təhsil alıb. 1971-1982-ci illərdə Eminli kənd məktəbində direktor vəzifəsində;

-1982-ci ildən 1990-cı ilə qədər Eminli Kənd Sovetinin Sədri vəzifəsində;

-1990-1995-ci illərdə Eminli sovxozunun direktoru vəzifəsində çalışıb. 1995-ci ildən ömrünün sonunadək Eminli kənd orta məktəbində pedoqoji fəaliyyətlə məşğul olub.

1999-cu ildə dünyasını dəyişən Həmzəli müəllimin yurdunda beş övladı qaldı. Oğlu Qoşqar Hətəmov hal-hazırda Masallı rayon Təhsil şöbəsində Baş inspektor vəzifəsində çalışır.



**İsmayılov Rəyasət İsa oğlu** – 1958-ci ildə Eminlidə anadan olub. Orta məktəbi Eminli və Qarğalıq kənd məktəblərində bitirib. 1984-cü ildə Gəncə Avtonəqliyyat Texnikumunun Avtomobilin İstismarı şöbəsini bitirib. Əmək fəaliyyətinə Ələt deposunda mexanik vəzifəsində başlayıb. 1993-cü ildən bu günədək Qızılağac Dövlət təbiət qoruğunda sahə müfəttişi vəzifəsində çalışır.

Ailəlidir, üç övladı var. Oğlu **Xalid** Azərbaycan Neft Akademiyasını bitirərək Neft şirkətində çalışır. Qızı **Aygün** Azərbaycan Texniki Universitetini bitirərək Rabitə Nazirliyində çalışır. Digər oğlu **Hüseyn** Azərbaycan İqtisad Universitetini bitirib.



**Nuruyev Xudaverdi Şirməmməd oğlu** – 1935-ci ildə Eminli kəndində anadan olub. Doğulduğu kənddə iki illik məktəbi, daha sonra Qarğalıq məktəbində səkkizillik məktəbi, 1955-ci ildə isə, Qızılağac kəndində tam orta məktəbi bitirərək, Lənkəran Pedaqoji Texnikumuna daxil olub. Əmək fəaliyyətinə 1958-ci ildə Yardımlı rayonunun Bozayran kəndində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi başlayıb. 1961-ci ildən ömrünün sonuna qədər (2011) Eminli kənd orta məktəbində pedaqoji fəaliyyətini davam etdirib. Gənc nəslin yetişməsində və təlim-tərbiyəsində müstəsna xidmətləri olan Xudaverdi müəllimin əziz xatirəsi tələbələrinin və kənd sakinlərinin qəlbində daim yaşayır.

**Ağayev Sakit Xanverdi oğlu** – 1963-cü ildə Eminlidə anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedoqoji İnstitutunun Riyaziyyat fakultəsinə daxil olub. 1985-ci ildə Ali məktəbi bitirərək təyinatla Cəlilabad rayonunun Abışabad kənd orta məktəbində riyaziyyat fənnini tədris etməyə başlayıb. 1988-ci ildən isə, Masallı rayonunun Köçəkli kənd orta məktəbində pedo-



qoji fəaliyyətini davam etdirməkdədir. Bu müddətdə müəllim, dərs hissə müdiri, hal-hazırda isə, məktəb direktoru vəzifəsində çalışır.

Sakit müəllim rəhbərlik etdiyi məktəbdə təhsil islahatı proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün təşkilati-pedoqoji tədbirlər həyata keçirir. Mütərəqqi təlim texnologiyalarının öyrənilməsinə və tətbiqinə xüsusi yer verir. Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi, diferansiallaşdırma və fərdiləşdirilməsi, təlim işinin uşaqların əqli və fiziki imkanlarına, arzu, meyl və maraqlarına uyğun qurulmasına, təhsil sistemində müasir yanaşmaların təmin olunmasına diqqətlə yanaşır.

Ailəlidir, üç övladı var. Oğlu **Sənan** Azərbaycan İqtisad Universitetinin tələbəsidir. Qızı **Şəbnəm** Tibb kollecini bitirib. Digər qızı **Çinarə** Astara Pedoqoji kollecində təhsil alır.

**Nuriyev Ceyhun Hakim oğlu** – 1980-ci ildə Eminlidə doğulub. Orta məktəbi (1998) bitirdikdən sonra hərbi xidmətə gedib. Azərbaycan Beynəlxalq Universitetinin Hüquq fakultəsində (2000-

2004) təhsil alıb. Daha sonra Polis Akademiyasını bitirib (2008). Əmək fəaliyyətinə Leytenant rütbəsində Masallı rayon Polis Şöbəsində sahə rəisi kimi başlayıb. Hal-hazırda kapitan rütbəsində Abşeron rayon Polis Şöbəsində sahə rəisidir. Ailəlidir, iki övladı var.



**Məmmədov Xatəm Hüseynqulu oğlu** – 1961-ci ildə Eminlidə doğulub. Orta məktəbi Eminli və Qarğalıq kəndlərində bitirdikdən sonra, 1976-cı ildə Azərbaycan Dövlət Dəmir Yolu Texnikumuna daxil olub. Daha sonra Rostov Dəmir Yolu İnstitutunu (1985) bitirərək, həmin İnstitutda laborant vəzifəsində işləməyə başlayıb. Texnika elmləri doktorudur.

Ailəlidir, iki övladı var.



**Eminov Gülbala Hacı Əlibala oğlu** – 1959-cu ildə Eminlidə anadan olub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə gedib. Xidmətdən sonra Azərbaycan Dövlət Universitetinin Kimya fakültəsini (1986) bitirib. Həmin ildən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Masallı rayon Ekologiya idarəsində şöbə müdiri vəzifəsində çalışıb. 2005-ci ildən bu günədək həmin nazirliyin Bakı şəhər Ekologiya Departamentində məsləhətçi müfəttiş vəzifəsində çalışır. Ailəlidir, üç övladı var.

Böyük qızı **Lalə** Bakı Dövlət Universitetinin tətbiqi kimya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Hazırda EA-nın Kimya Problemləri İnstitutunda doktorantura təhsili almaqla yanaşı, həm də özəl klinikalardan birində laborant vəzifəsində çalışır.

Oğlu **Malik** Azərbaycan Tibb Universitetinin Müalicə Profilaktika fakültəsini bitirib. Hazırda Türkiyə Cümhuriyyətindəki klinikalardan birində həkim-terapevt kimi çalışır.



**Ağayev Vasif Xanverdi oğlu** – 1975-də Eminlidə doğulub. VIII-ci sinfi bitirdikdən sonra Bakı şəhərində fizika-riyaziyyat təmayüllü litseyə daxil olub. 1992-ci ildə buranı başa vuraraq, Azərbaycan İnşaat Mühəndisləri Universitetinə daxil olub. Əmək fəaliyyətinə fermer təsərrüfatında başlayıb. 2002-ci ildən bugünədək "Azpetrol" Neft şirkətində çalışır. Bu müddətdə operator, xəzinədar, mexanik, növbə rəisi vəzifələrində işləyib. Hazırda həmin şirkətin yanacaqdoldurma məntəqəsində direktor vəzifəsində çalışır. Ailəlidir, iki övladı var.

## EMİNLİ KƏNDİNİN ŞƏHİD VƏ QAZİLƏRİ

***“Allah yolunda öldürülənləri** (şəhid olanları) **heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diri-dirlər. Onlara Rəbbi yanında ruzi** (cənnət ruzisi) **əta olunur. Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə** (şəhidlik rütbəsinə) **sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış** (şəhidlik səadətinə hələ nail olmamış) **kəslərin** (axirətdə) **heç bir qorxusu olmayacağına və on-ların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər. Onlar Allahdan gələn nemət və mərhə-mətə görə, həm də Allahın möminlərin mükafa-tını puça çıxarmayacağına görə sevincək olur-lar**”. Qurani-Kərim, “İmran ailəsi” surəsi, 169-171-ci surələr.*

Azərbaycan tarixinə nəzər salanda, kafir ermənilərin zaman-zaman xalqımızın üzərinə hücum etdiyini və qanlı qırğınlar törətdi-yini görmək olar.

1905-1918-ci illərdə onların Azərbaycan xal-qına qarşı törətdiyi soyqırımın yaraları sağalma-

mış, XX əsrin sonlarında yeni bir soyqırım cinayətinə əl atdılar. Bütün dövrlərdə olduğu kimi, bu dəfə də millətimizin vətənpərvər, mərd oğulları silaha sarılaraq, quduzlaşmış erməni kafirlərinin qarşısına çıxdılar. Belə bir məqamda Eminli kəndinin də qeyrətli cavanları torpaqlarımızın müdafiəsinə qalxdılar. Onlardan bəziləri sağ-salamat qayıtsa da, bir neçəsi əlil oldu, üç nəfəri isə şəhidlik məqamı qazandı. Bu kitabda onlar haqqında da məlumat verməyi özümə borc bildim.



***Şəhid Həbib Sadıqov***

Həbib Tapdıq oğlu Sadıqov 1963-cü ildə Eminlidə doğulub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Xidməti başa vurduqdan sonra ailəsini dolandırmaq üçün Rusiyaya qayıdaraq, işləməyə başlayıb. Ermənilərin Qarabağda törətdikləri vəhşilikləri eşidən Həbib kənarda qalmağı qeyrətinə sığışdırmayıb. 1993-cü ildə oradan birbaşa Qarabağa gəlib. Ağdam və Füzuli rayonlarının müdafiəsində fədakarlıq göstərib. Nəhayət, 1993-cü ilin iyununda Füzuli rayonu uğrunda gedən döyüşlərdə ağır yaralanıb. Bakı şəhərindəki hərbi hospitala çatdırılsa

da, əməliyyatdan sağ çıxmayıb. Qəbri Eminli qəbiristanlığındadır. Onu da qeyd edim ki, Həbib Sadıqov kəramətləri ilə Sabirabad və Şirvan bölgəsində məşhur olan Seyid Mircəfər ağanın nəvəsidir. Allah rəhmət eləsin!

***"İman gətirib hicrət edənləri, Allah yolunda malları və canları ilə vuruşanları Allah yanında ən yüksək dərəcələr gözləyir. Onlar nicat tapanlardır*** *(xeyrə qovuşanlardır)". Qurani-Kərim, "Tövbə" surəsi, 20.*

### *Şəhid Rəşad Ağayev*



Rəşad Yusif oğlu Ağayev 1975-ci ildə Eminlidə anadan olub. 1992-ci ildə orta məktəbi "əla" qiymətlərlə bitirib. Arzusu dənizçi olmaq idi. Elə bu arzuyla da sənədlərini Bakı Dənizçilik məktəbinə verib. İmtahandan kəsildikdə Səbail rayonundakı texniki peşə məktəbinə daxil olub. 1993-cü ildə buranı bitirdikdən sonra hərbi xidmətə yola düşüb. Gəncədəki 130 saylı hərbi hissədə komandir gənc əsgərləri sıraya düzərək: "kim tankçı olmaq istəyir?" soruşduqda, Rəşad: "Mən" – deyə cavab verir.

Beləliklə də, Rəşad təlimlərə başlayır və az bir vaxtda yaxşı tankçı kimi tanınır. Tərtər və Ağdərə rayonlarının müdafiəsində qəhrəmanlıq fədakarlıq göstərir.

Qardaşı Şahinin toyunda iştirak etmək üçün üç günlük icazə alaraq evə gələn Rəşad cəmi bir gün qalaraq geri döndü. Valideynləri təkid edəndə dedi: "Yoldaşlarım səngərdə düşmənlə üz-üzə olduqları halda mən isti yataqda arxayın yata bilmərəm; mütləq onların yanında olmalıyam..."

Dekabrın 26-da Ağdərinin Hacıqaya yüksəkliyinin alınmasında, iki gündən sonra isə, Dastagil kəndinin düşməndən alınmasında rəşadət göstərdi. 1994-cü ilin yanvarın 1-də keçmiş Ağdərə rayonunun Akop Kamari kəndi uğrunda ağır döyüşlər başladı. Qanlı döyüş üç gün davam etdi. Rəşad da bu döyüşdə qəhrəmancasına həlak oldu. Qəbri Eminli qəbiristanlığındadır. Allah rəhmət eləsin. Şəhid Rəşadın bir vaxtlar yaşadığı həyətdə indi yeni bir Rəşad böyüməkdədir. İnşallah, şəhid əmisinin yarımçıq qalmış arzularını o həyata keçirir.

***"Möminlər yalnız Allaha və Peyğəmbərinə iman gətirən*** *(iman gətirdikdən),* ***sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə vuruşanlardır! Məhz belələri***

*(imanlarında)* ***sadiq olanlardır!”*** *“Qurani-Kərim”, “Otaqlar” surəsi, 15.*

### *Şəhid Mehdi Abbasov*



Mehdi Bayram oğlu Abbasov 1975-ci ildə Eminlidə anadan olub. Orta məktəbdə “əlaçı” və nümunəvi şagird olduğuna görə rayon və respublika səviyyəli tədbirlərdə Eminli məktəbini Mehdi təmsil edərdi. Xaraktercə sakit və çalışqan uşaq idi. Arzusu ədəbiyyat müəllimi olmaq idi. Bu məqsədlə sənədlərini universitetə versə də, imtahandan keçə bilməmişdi. 18 yaşı tamam olanda Vətəni qorumaq üçün cəbhəyə yollandı. Hərbi hissədə də nümunəvi xidmətinə görə başqalarından fərqlənirdi. Tez-tez fəxri fərmanlarla təltif olunur, vaxtından qabaq məzuniyyətlə mükafatlandırılırdı. Tərtər və Ağdərə rayonları uğrunda gedən döyüşlərdə qəhrəmanlıq gösərmişdi. Mehdinin sonuncu döyüşü Marquşavan kəndi uğrunda oldu. Yağı düşmən 1994-cü ilin aprelin 24-də böyük qüvvə ilə hücuma keçdi. Milli Ordumuz bu hücumun qarşısını almaq üçün çox böyük rəşadət göstərdi. Döyüşdə

fədakarlıq göstərənlərdən biri də Mehdi Abbasov idi. Bu, onun düşmənlə sonuncu döyüşü oldu. Həmin gecə Mehdi qəhrəmanlıqla şəhid oldu. Qəbri Eminli kəndinin qəbiristanlığındadır. Allah rəhmət eləsin!

***“Müharibəyə getməyib evlərində oturan və*** *(müharibəyə getmiş)* ***qardaşları haqqında: “Əgər onlar sözümüzə qulaq assaydılar, öldürülməzdilər”, - deyənlərə söylə: “Əgər doğru deyirsinizsə, onda*** *(bacarıb)* ***ölümü özünüzdən uzaqlaşdırın!”***

***“De: Əgər evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə də əbədi yatacaqları yerə*** *(qəbrə)* ***gedərdilər...” “****Quran”, “İmran ailəsi” surəsi, 168.*

Eminli kənd məktəbinin tarix müəllimi, həvəskar şair Ziyafət Eminli bu üç şəhidə həsr etdiyi şerində yazır:

*Yolum düşdü bir gün məzarıstana,*
*Üç şəhid görmüşəm yatıb yan-yana,*
*Ataya, anaya bir dərd oldular,*
*Nə tez açıldılar, nə tez soldular.*

*Tarixdə qalacaq sizin adınız,*
*Haqqa üz tutaraq şəhid oldunuz,*

*Vətənə, torpaqa bağlı oldunuz,*
*Nə tez açıldınız, nə tez soldunuz.*

*Ömrün bahar çağı nələr gördünüz?*
*Nələr eşitdiniz, nələr bildiniz?*
*Haqq yolunda bu dünyada öldünüz,*
*Nə tez açıldınız, nə tez soldunuz.*

*Sizin ölümünüz ölüm sayılmaz,*
*Millət yenə yatıb, hələ ayılmaz,*
*Əvəzi olmayan igid oldunuz,*
*Nə tez açıldınız, nə tez soldunuz.*

*Həbibdir, Rəşiddir, Mehdidir adı,*
*Heç biri dünyadan bir kam almadı,*
*Millətə, vətənə vurğun oldular,*
*Nə tez açıldılar, nə tez soldular.*

## *Eminli kəndindən Qarabağ müharibəsində işirak etmiş qazilər*

Abbasov Namiq Yavər oğlu.

Ağayev Asəf Əliqulu oğlu.

Ağayev Şahin Yusif oğlu – II qrup Qarabağ əlili.

Nuriyev Zaur Xudaverdi oğlu – II qrup Qarabağ əlili.

Qəribov Elmar Yasər oğlu - II qrup Qarabağ əlili.

Allahverdiyev Salman Ağacan oğlu - II qrup Qarabağ əlili.

Nəzərov Hamlet Eldar oğlu.

Şahverdiyev Cavid Mehi oğlu.

Həsənov Elşən İslam oğlu.

Zeynalov Gülşad Əliş oğlu.

Məmmədov Səyyad Ağavedi oğlu.



## 1941-1945-Cİ İL MÜHARİBƏSİNDƏ EMİNLİ KƏNDİNDƏN İŞTİRAK ETMİŞ VETERANLARIN SİYAHISI

Əmirov Sübhan Rəsul oğlu

Allahverdiyev Nəzirməmməd Süleyman oğlu

Rzayev Hacıbala

Rzayev Rza

Rzayev Verdalı

Hüseynov Şəkər

Hüseynov Hüseynağa

Zeynalov Əvəz Bayraməli oğlu

Ağayev Gülmalı

Eminov Fərrux Fəxrət oğlu

Həsənov Teymur Eyni oğlu

Kərimov Etibar

Abdinov Bədir

Məmmədov Şirməmməd Kərbəlayi Nuru oğlu

Abdinov Nurməmməd Qədir oğlu

Abdinov Məmməd Yunus oğlu

Quliyev Həmzə Ağabala oğlu
Ağayev Denyal Hüseyn oğlu
Qardaşov Bəhmən Eynal oğlu
Eminov Razax Əlican oğlu
Ağayev İltimas Müseyib oğlu
Nəzərov Şahbaz Əmir oğlu
Nəzərov Orduxan Əmir oğlu
Fərəcov Nurullah Xəlil oğlu
Fərəcov Firuz Ağazadə oğlu
Ağayev Süleyman Umud oğlu
Güllərov İbrahim Hümmət oğlu
Güllərov Əjdər Hümmət oğlu

Qeyd: siyahıda adı çəkilən Abdinov Nurməmməd Qədir oğlu Ukraynanın Mozdok şəhərində, Polşanın azad edilməsində qəhrəmanlıq göstərmiş və İtaliyada partizan hərəkatında məşhur partizan Mehdi Hüseynzadə (Mixaylo) ilə birgə döyüşmüşdür.

Söz ardı: Siyahının hazırlanmasında göstərdikləri köməkliyə görə Eminli kəndinin vətənpərvər gəncləri Abdinov Nizamiyə və Agazadə Yaquba təşəkkürümü bildirirəm.

# BAKI QUBERNİYASININ LƏNKƏRAN QƏZASININ EMINLI (MAHMUDLU) KƏNDİNDƏ YAŞAMIŞ ƏHALİNİN 1873-CÜ İL SİYAHIYA ALMASI

*(Fond 43; siyahı 2; saxlanma vahidi 7201)*

1. **Xanməmməd Aydəmir oğlu** – 35 yaş;
   *Oğlu*: Ağamalı – 11 yaş;
   Qadınların sayı: 1.

2. **Əliqulu Niftəli oğlu** – 30 yaş;
   *Oğlu*: Rufulla – 2 yaş;
   *Qardaşı*: Vəliqulu – 27 yaş;
   Qadınların sayı: 5.

3. **Şahverdi Hüseyn oğlu** – 55 yaş;
   *Oğlanları*: Baxış – 29 yaş;
   Xanhüseyn (Qara) – 18 yaş;
   Həsən – 15 yaş;
   *Baxışın oğulları*: Abdulhüseyn – 5 yaş;
   Ağahüseyn – 2 yaş;
   Qadınların sayı: 2.

4. **Hüseyn Molla Əli (Alı) oğlu** – 29;
*Oğlanları:* Ağarza – 5 yaş;
Nağı – 2 yaş;
Qadınların sayı: 3.

5. **Hacı Məmmədqulu Mirverdi oğlu** – 59 yaş;
*Oğlanları:* Ələsgər – 13 yaş;
Hacıməmməd – 6 yaş;
Nurməmməd – 2 yaş;
Qadınların sayı: 2.

6. **Allahyar Hüseynalı oğlu** – 57 yaş;
*Oğlanları:* Xanmurad – 5 yaş;
Gülmurad – 3 yaş;
*Qardaşı:* Əliyar – 35 yaş;
*Əliyarın oğulları:* Abı – 5 yaş;
Amanulla – 2 yaş;
Qadınların sayı: 3.

7. **Şaməmməd Rəhim oğlu** – 41 yaş;
*Oğlanları:* Şaəli – 17 yaş;
Əlikişi – 14 yaş;
Qadınların sayı: 4.

8. **Seyid Məmməd Qasım oğlu** – 17 yaş;
*Qardaşı:* Abbas – 15 yaş;
Qadınların sayı: 2.

9. **Əmyar Aslan oğlu** – 50 yaş;
*Oğlu:* Mirhüseyn – 15 yaş;
*Qardaşı (bacısı) oğlu:* Vəli Vəli oğlu – 5 yaş;
Qadınların sayı: 2.

10. **Nəcəfəli Niyazqulu oğlu** – 45 yaş;
*Oğlanları:* Təhməz – 29 yaş;
Rüstəm – 16 yaş;
Əhmədəli – 13 yaş;
*Qardaşı:* Bayraməli – 30 yaş;
Qadınların sayı: 2.

11. **Şahnəzər Gülməmməd oğlu** – 17 yaş;
*Qardaşları:* Hüseyn – 15 yaş;
Rüstəm – 13 yaş;
Qadınların sayı: 3.

12. **Mirzəməmməd Molla Seyidməmməd oğlu** – 50 yaş;
*Oğlanları:* Ağaməmməd – 12 yaş;
Əliməmməd – 8 yaş;
*Qardaşları:* Məmməd – 35 yaş;
Allahyar – 30 yaş;
İbrahim – 25 yaş;
Qadınların sayı: 7.

13. **Əli (Alı) Aslan oğlu** – 55 yaş;
*Oğlanları:* Mehti – 28 yaş;
Abduləli – 16 yaş;

Qadınların sayı: 1.

14. **Həsən Məmməd oğlu** – 41 yaş;
*Oğlanları:* Abdulla – 13 yaş;
Cahangir – 3 yaş;
Qadınların sayı: 2.

15. **Əhməd İsmail oğlu** – 40 yaş;
*Oğlanları:* Abbas – 14 yaş;
Seyidmirzə - 12 yaş;
Məhərrəm – 9 yaş;
İsmail – 6 yaş;
Qadınların sayı: 2.

16. **Şahnəzər Mirverdi oğlu** – 40 yaş;
*Oğlanları:* Mirverdi – 15 yaş;
Allahverdi – 11 yaş;
*Yaxın qohumu:* Ələkbər Əlirza oğlu – 22 yaş;
*Onun oğlu:* Ağaşirin – 1 yaş;
Qadınların sayı: 2.

17. **Gəncəli Allahverən oğlu** – 29 yaş;
*Qardaşları:* Nəcəfəli – 26 yaş;
Qurbanəli – 8 yaş;
Novruzəli – 6 yaş;
Qadınların sayı: 4.

18. **Cəfər Qədimqulu oğlu** – 29 yaş;
*Qardaşları:* Zeynalabidin – 18 yaş;

Abbas – 16 yaş;
Ağakişi – 14 yaş;
Səfəralı – 12 yaş;
Əli – 7 yaş;
Qadınların sayı: 1.

19. **Kərbəlayi Şahbaz Vəli oğlu** – 40 yaş;
*Oğlanları:* Hüseyn – 29 yaş;
Ələskər – 18 yaş;
Neymətulla – 2 yaş;
*Hüseynin oğlu:* Mustafa – 1 yaş;
Qadınların sayı: 5.

20. **Abbas Vəli oğlu** – 30 yaş;
*Oğlanları:* Məmməd – 20 yaş;
Səfərəli – 17 yaş;
Cəfər – 16 yaş;
Qadınların sayı: 3.

21.**Dadaş Əbülhəsən oğlu** – 20 yaş;
*Qardaşları:* Babakişi – 1 yaş;
Mirhəsən – 4 yaş;
Qadınların sayı – 3.

22. **Hürü Emin qızı (İrza Əmyar oğlunun dul qalmış arvadı)** – 50 yaş.

23. **Əliqulu Mirzə oğlu** – 7 yaş;
Qadınların sayı – 2.

24. **Ələsgər Xanmirzə oğlu** – 28 yaş;
Qadınların sayı: 3.

25. **Məşədi Nurməmməd Kərim oğlu** – 50 yaş;
*Oğlanları:* Abduləli – 18 yaş;
İsmail -15 yaş;
Rzaəli – 13 yaş;
Qadınların sayı – 3.

26. **Nuralı Niftalı oğlu** – 14 yaş;
Qadınların sayı – 1.

27. **Hüseyn Cəfər oğlu** – 28 yaş;
*Qardaşı:* Əli – 13 yaş;
Qadınların sayı – 1.

28. **İbrahim Xanməmməd oğlu** – 13 yaş;
Qadınların sayı – 2.

29. **Rufulla Fətulla oğlu** – 12 yaş;
*Qardaşı:* Gülmalı – 4 yaş;
Qadınların sayı – 3.

30. **Hacıbaba Emin oğlu** – 35 yaş;
*Oğlanları:* Abdurahman – 15 yaş;
Hüseyn – 13 yaş;
Qadınların sayı – 2.

31. **Hacağa Emin oğlu** – 35 yaş;
*Oğlanları:* Ağababa – 15 yaş;

Mütəllim – 8 yaş;
*Hacağanın qardaşları:* Paşa – 29 yaş;
İsmail – 28 yaş;
Qadınların sayı – 5.

32. **Eyvaz Yaradan oğlu** – 50 yaş;
*Oğlu*: Qurban – 9 yaş;
Qadınların sayı – 4.

33. **Ağaverdi Bədəl oğlu** – 35 yaş;
*Oğlu:* Məmmədəli – 2 yaş;
*Qardaşı:* Əliverdi – 29 yaş;
Qadınların sayı – 4.

34. **Allahqulu Yaradanqulu oğlu** – 55 yaş;
*Oğlu*: Davud – 8 yaş;
Qadınların sayı – 2.

35. **Məmmədqulu Bəndalı oğlu** – 50 yaş;
*Oğlanları:* Məmmədalı – 18 yaş;
Mehti – 16 yaş;
Bəndalı – 1 yaş;
Qadınların sayı – 4.

36. **Musa Bəndalı oğlu** – 41 yaş;
*Oğlanları*: Səfər – 8 yaş;
Müzəffər – 6 yaş;
Qəmbər – 4 yaş;
Məhərrəm – 1 yaş;

*Qardaşı:* Məhəmməd – 23 yaş;
Qadınların sayı – 5.

37. **Məşədi Baxış Ağamirzə oğlu** – 60 yaş;
*Oğlanları:* Rufulla – 18 yaş;
Lütfulla – 16 yaş;
Nağı – 4 yaş;
Qadınların sayı – 3.

38. **Xudabaxış Ağamirzə oğlu** – 57 yaş;
*Oğlanları:* Sadıq – 18 yaş;
Əhməd – 5 yaş;
Məmməd – 3 yaş;
Qadınların sayı – 2.

39. **Kərbəlayi Salman Məmmədqulu oğlu** – 45 yaş;
*Oğlanları:* Zeynalabdin – 16 yaş;
Məmmədqulu – 17 yaş;
Allahverdi – 8 yaş;
Mirzağa – 3 yaş;

40. **Məmədqulunun oğlu Mirzəhacı** – 1 yaş;
Qadınların sayı – 5.

41. **Mirzəməmməd Soltanmurad oğlu** – 28 yaş;
*Qardaşları:* Əsgər – 20 yaş;
Hüseynxan – 17 yaş;
Gülməmməd – 14 yaş;
Qadınların sayı – 8.

42. **Məmmədbağır Dostu oğlu** – 48 yaş;
*Oğlanları:* Məmi – 14 yaş;
Ağa – 12 yaş;
Həsənəli – 8 yaş;
Orucəli – 6 yaş;
Xanəli – 3 yaş;
Qadınların sayı – 2.

43. **Hacı Mirzə Məmmədşərif oğlu** – 55 yaş;
*Oğlanları:* Şərifxan – 26 yaş;
Əbi – 17 yaş;
Həşim – 15 yaş;
Zeynalabdin – 3 yaş;
Qadınların sayı – 4.

44. **Hacı-əli Şərif oğlu** – 65 yaş;
*Oğlanları:* Ağamoğlan 29 yaş;
Şahmar – 6 yaş;
*Ağamoğlanın oğulları:* Talıb – 3 yaş;
Yaqubcan – 1 yaş;

45. **Hasam Qasım oğlu** – 55 yaş;
*Oğlanları:* İbadulla – 15 yaş;
Xəlil – 13 yaş;
Səməd – 8 yaş;
Kərim – 6 yaş;
Abdulla – 4 yaş;
Həbibulla – 1 yaş;
Qadınların sayı – 2.

46. **Yarməmməd İmanqulu oğlu** – 31 yaş;
*Oğlu:* Abdulhüseyn – 5 yaş;
*Himayəsindəki qohumu:* Şahəli Ağaməmməd oğlu – 16 yaş;
Qadınların sayı – 3.

47. **Fərəculla Baba oğlu** – 28 yaş;
*Oğlu:* Əzizəli – 1 yaş;
*Qardaşları:* Qardaşxan – 22 yaş;
Camalxan – 20 yaş;
Qadınların sayı – 2.

48. **Kərbəlayi Hüseyn Qasım oğlu** – 45 yaş;
*Oğlanları:* Cəfər – 19 yaş;
Qafar – 17 yaş;
Əhəd – 13 yaş;
Qadınların sayı – 3.

49. **Hümmətəli oruc oğlu** – 26 yaş;
*Oğlu:* əbülfət – 4 yaş;
Qadınların sayı – 2.

50. **İbrahim Qaqaməli oğlu** – 61 yaş;
*Oğlu:* Teymurxan – 25 yaş;
*Teymurxanın oğlu Həşim* – 8 yaş;
Qadınların sayı – 3.

51. **Kərbəlayi Nəzərəli Ağayar oğlu** – 35 yaş;
*Oğlanları:* Kamalhəsən – 13 yaş;

Hüseyn – 8 yaş;
Abdulla – 1 yaş;
*Qardaşı:* Atakişi – 22 yaş;
Qadınların sayı – 3.

52. **Bəyməmməd Kazım oğlu** – 45 yaş;
*Oğlu:* Gülüş – 8 yaş;
*Himayəsində olan qohumu Məmmədəlinin oğulları*: Mirzəməmməd – 26 yaş;
Eynulla – 12 yaş;
Qadınların sayı – 3.
53. **Ağa Mustafa oğlu** – 22 yaş;
*Qardaşları:* Məmmədrəhim – 18 yaş;
Ağarəhim – 16 yaş;
Ağaəli – 14 yaş;
Qadınların sayı – 2.

54. **Gülməmməd Soltanəhməd oğlu** – 29 yaş;
*Oğlanları:* Paşa – 8 yaş;
Ələsgər – 4 yaş;
Qadınların sayı – 1.

55. **Nurməmməd Əlirza oğlu** – 42 yaş;
*Oğlanları:* Zeynalxan – 20 yaş; *(proporşik)*
Sərməst – 12 yaş;
İrad .... – 11 yaş;
Qulu – 4 yaş;
Qadınların sayı – 3.

56. **Hüseyn Nuru oğlu** – 45 yaş;
*Oğlu:* Nuru – 14 yaş;
*Himayəsindəki qohumu:* Həsən Heydər oğlu: 28 yaş;
Qadınların sayı – 3.

57. **Nəsrulla İbadulla oğlu** – 13 yaş;
*Qardaşları:* Paşa – 6 yaş;
Gülverdi – 5 yaş;

58. **Məlik Hacı-əli oğlu** – 42 yaş;
Qadınların sayı – 2.

59. **Həsənxan Əhmədxan oğlu** – 29 yaş;
*Oğlanları:* Hüseynxan – 4 yaş;
Allahverdi – 3 yaş;
*Qardaşları:* Zamanxan – 26 yaş;
İmanxan – 24 yaş;
Novruzxan – 18 yaş;
Qadınların sayı – 5.

60. **Cəfər Əli oğlu** – 28 yaş;
*Oğlu:* Fətulla – 6 yaş;
*Qardaşları:* Abduləli – 26 yaş;
Yusif – 13 yaş;
Qadınların sayı – 4.

61. **İmanqulu Məmmədqulu oğlu** – 31 yaş;
*Oğlu:* Nemətulla – 12 yaş;

*Qardaşları:* Ağa – 23 yaş;
Mehti – 18 yaş;
İbadulla – 17 yaş;
Qadınların sayı – 5.

62. **Nurməmməd Məmməd oğlu** – 35 yaş;
*Oğlu:* Vəliməmməd – 6 yaş;
*Qardaşı:* Əliməmməd – 24 yaş;
Əliməmmədin oğlu Orucəli – 3 yaş;

63. **Məmmədyar Məhəmməd oğlu** – 28 yaş;
*Oğlu:* İbadulla – 5 yaş;
*Qardaşı:* Camalxan – 21 yaş;
Camalxanın oğlu Nəsir – 3 yaş;
Qadınların sayı – 3.

64. **Həsən Əsgər oğlu** – 30 yaş;
Qadınların sayı – 1.

65. **Məmi Yadigar oğlu** – 40 yaş;
*Qardaşı:* Ağakərim 36 yaş;
*Oğlanları:* Abul – 9 yaş;
Şirinəli – 6 yaş;
*Məminin qardaşı:* İrzaqulu – 29 yaş;
*İrzaqulunun oğlu*: İldırımmirzə - 20 yaş;
Qadınların sayı – 5.

66.**Babaş Yadigar oğlu** – 28 yaş;
*Oğlanları:* Mirzəkişi – 6 yaş;

Babakişi – 2 yaş;
Qadınların sayı – 1.

67. **Kərbəlayi Ələkbər Şıxı oğlu** – 41 yaş;
*Oğlu:* Ələsgər – 6 yaş;
*Qardaşı*: Zərbalı – 28 yaş;
*Himayəsindəki qohumları*: Qubad Nəzaralı oğlu – 14 yaş;
İbad Nəzaralı oğlu – 10 yaş;
Qadınların sayı – 4.

68. **Abbas Məmmədqasım oğlu -** 35 yaş;
*Oğlu:* Nurulla – 13 yaş;
*Qardaşları:* Məhəmməd – 28 yaş;
Əliməmməd – 16 yaş;
*Məhəmmədin oğlu:* Hüseyn – 4 yaş;
Qadınların sayı – 5.

69. **Abbasəli Əhməd oğlu** – 35 yaş;
Oğlu*:* Əsədulla – 9 yaş;
*Himayəsindəki qohum uşaqları:*
İmamverdi – 6 yaş;
Xudaverdi – 5 yaş;
Qadınların sayı – 3.

70. **Əhməd Allahverdi oğlu:** 90 yaş;
*Oğlanları:* Məhərrəm – 40 yaş;
Camalxan – 31 yaş;
Şahbazxan – 28 yaş;

Abasxan – 26 yaş;
*Camalxanın oğlu:* Tumarxan – 9 yaş;
*Şahbazxanın oğlu:* Abduləhəd – 3 yaş;
Qadınların sayı – 8.

71. **Abbasəli Adınaqulu oğlu** – 35 yaş;
Oğlu*:* Cavad – 8 yaş;
Qardaşları*:* Fətəli – 28 yaş;
Adnaqulu – 26 yaş;
*Fətəlinin oğulları:*
Ağaşirin – 8 yaş;
Xudaşirin – 5 yaş;
*Himayəsindəki qohumu:* Nurulla – 18 yaş;
Qadınların sayı – 2.

72. **Əliaslan Məmmədəli oğlu** – 28 yaş;
*Qardaşı:* Abdulaslan – 17 yaş;
Qadınların sayı – 4.

73. **Babaş Məmmədhəsən oğlu** – 24 yaş;
*Qardaşları:* Ağakişi – 18 yaş;
Mirhəsən – 14 yaş;
Xanhəsən – 11 yaş;
Mikail – 8 yaş;
Qadınların sayı – 6.

74. **Əliqulu Bayraməli oğlu** – 34 yaş;
*Oğlanları*: Abdulla – 7 yaş;
Bayraməli – 4 yaş;

*Qardaşları:* Hüseyn – 32 yaş;
Məmmədqulu – 22 yaş;
Cəfərqulu – 20 yaş;
Qadınların sayı – 2.

75. **Kərbəlayi Əhmədxan Ocaqverdi oğlu** – 35 yaş;
*Oğlanları:* Feyzulla – 3 yaş;
Amanulla – 1 yaş;
*Qardaşları:* İsmail – 25 yaş;
Haxverdi – 20 yaş;
*İsmailin oğlu:* Fərzulla – 4 yaş;
Qadınların sayı – 3.

76. **Mövlaəliverdi Murad oğlu** – 30 yaş;
*Qardaşları:* Nurməmməd – 26 yaş;
Abdüləziz – 16 yaş;
Qadınların sayı – 3.

77. **Əsədulla Bayraməli oğlu** – 29 yaş;
*Oğlu:* Həbibulla – 8 yaş;
*Qardaşları*: Rəhim – 16 yaş;
İsmail – 28 yaş;
Zeynalabidin – 14 yaş;
Qadınların sayı – 1.

78. **Əziz Abbasəli oğlu** – 26 yaş;
*Himayəsindəki qohumu:* Qurban Həsənəli oğlu – 11 yaş;
Qadınların sayı – 1.

79. **Ağayar Hüseynəli oğlu** – 40 yaş;
*Qardaşı:* Pirməmməd – 20 yaş;
Qadınların sayı – 3.

80. **Süleyman Şahmurad oğlu** – 20 yaş;
Qadınların sayı – 1.

81. **Kərim Cəfər oğlu** – 41 yaş;
*Oğlanları*: Xankişi – 18 yaş;
Nurəli – 14 yaş;
Əliəkbər – 11 yaş;
Qadınların sayı – 3.

82. **Baba Kərim oğlu** – 28 yaş;
*Qardaşı:* Zahidxan – 26 yaş;
*Himayəsindəki qohumu*: Tarverdi Süleyman oğlu – 3 yaş;
Qadınların sayı – 7.

83. **Məşədi Azad Xankərim oğlu** – 32 yaş;
*Oğlanları:* Şirməmməd – 18 yaş;
Pirməmməd – 15;
Xanəli – 13 yaş;
Dadaş – 5 yaş;
Qadınların sayı – 3.

84. **Ağaməmməd Nurməmməd oğlu** – 18 yaş;
*Qardaşı:* Şahməmməd – 12 yaş;
Qadınların sayı – 1.

85. **Məəsuməli Allahverdi oğlu** – 20 yaş;
Qadınların sayı – 1.

86. **Nəsrulla Əli oğlu** – 24 yaş;
*Qardaşı:* Seyfulla – 15 yaş;
Qadınların sayı – 8.

87. **Allahyar Qərib oğlu** – 17 yaş;
*Qardaşları:* Nurəli – 14 yaş;
Həsən – 4 yaş;

88. **Molla Qərib Hüseynalı oğlu** – 23 yaş;
*Oğlu:* Sala – 4 yaş;
*Qardaşı:* Qəmbərəli – 25 yaş;
Qadınların sayı – 3.

89. **Əsədulla Kərbəlayi Məmməd oğlu** – 35 yaş;
*Oğlu:* Qurban – 3 yaş;
*Qardaşları*: Nəcəfqulu – 26 yaş;
Abdulhüseyn – 14 yaş;
Məmmədhüseyn – 11 yaş;
Qadınların sayı – 7.

90. **Baloğlan Cəfərxan oğlu** – 15 yaş;
*Qardaşı:* Feyzulla – 8 yaş;
*Əmisi:* Bədirxan Mövla oğlu – 29 yaş;
*Oğlanları:* Səfər – 1 yaş;
Qafar – 1 yaş;
Qadınların sayı – 1.

91. **Əlihüseyn Qasım oğlu** – 29 yaş;
*Oğlu:* İsmail – 1 yaş;
Qadınların sayı – 2.

92. **Fərəculla Məmi oğlu** – 28 yaş;
*Oğlu:* Nurulla – 1 yaş;
*Qardaşı:* Rufulla – 26 yaş;
Qadınların sayı – 3.

93. **İsmailxan Allahverdi oğlu** – 28 yaş;
*Qardaşı:* Turabxan – 15 yaş;
Qadınların sayı – 5.

94. **Zeynəlxan Kərbəlayi Əmyar oğlu** – 32 yaş;
*Oğlanları:* Zayidxan – 11 yaş;
Əhəd – 4 yaş;
İmanxan – 3 yaş;
*Qardaşları:* Abasxan – 28 yaş;
Cavad – 26 yaş;
Hətəmxan – 13 yaş;
Qadınların sayı – 7.

95. **Hüseyn İsmail oğlu** – 46 yaş;
*Oğlanları:* Mirzəməmməd – 11 yaş;
Həsən – 5 yaş;
Qadınların sayı – 3.

96. **Gülməmməd Allahverdi oğlu** – 59 yaş;
*Oğlanları:* Məhərrəm – 26 yaş;
İsmail – 18 yaş;

Mikail – 12 yaş;
Qadınların sayı – 4.

97. **Məmməd Allahverdi oğlu** – 64 yaş;
*Oğlanları:* Əsəd – 28 yaş;
Niftulla – 14 yaş;
Qadınların sayı – 3.

98. **Gülməmməd Şahverdi oğlu** – 57 yaş;
*Oğulluğu:* Ələkbər Vəli oğlu – 25 yaş;
Qadınların sayı – 3.

99. **Əliməmməd Allahverdi oğlu** – 51 yaş;
*Oğlanları:* Neymətulla – 11 yaş;
Şirin (Vəliməmməd) – 5 yaş;
Qadınların sayı – 2.

100. **Vəli Əli oğlu** – 29 yaş;
Qadınların sayı – 2.

101. **Məmməd Qoca oğlu** – 32 yaş;
*Oğlu:* Neymətulla – 7 yaş;
*Qardaşları:* Musa – 17 yaş;
Qocaəli – 13 yaş;
Qadınların sayı – 4.

102. **Əliməmməd Əli oğlu** – 32 yaş;
*Oğlu:* Ağarəhim – 2 yaş;
*Qardaşları:* Əzizəli – 28 yaş;

Həsənxan – 26 yaş;
*Əzizəlinin oğlanları:* Məmmədrəhim – 7 yaş;
Həmzə - 3 yaş;
Qadınların sayı – 3.

103. **Abduləzim Zeynalabdin oğlu** – 20 yaş;Qadınların sayı – 1.

104. **Şahqasım Abgül oğlu** – 33 yaş;
*Oğlanları:* Şıxməmməd – 3 yaş;
Ağəli – 1 yaş;
*Himayəsindəki qohumu:* Əliqasım Gülqasım oğlu – 18 yaş;
Qadınların sayı – 2.

105. **Şahbazəli Şahbaz oğlu** – 51 yaş;
*Qardaşları:* Lütfulla – 29 yaş;
Bayraməli – 16 yaş;
*Şahbazın oğlu:* Kərim – 1 yaş;
Qadınların sayı – 4.

106. **Kərbəlayi Haqverdi Əli oğlu** – 45 yaş;

107. **Abbas Haqverdi oğlu** – 20 yaş;
*Qardaşı:* Nurulla – 17 yaş;
*Nurullanın oğlu Nurməmməd* – 1 yaş;
Qadınların sayı – 3.

108. **Pirməmməd Hacı Əli oğlu** – 36 yaş;
*Qardaşı:* Hacıməmməd – 28 yaş;

*Oğlu:* Ağaməmməd – 1 yaş;
Qadınların sayı – 2.

109. **Müzəffər Hüseynəli oğlu** – 19 yaş;
Qadınların sayı – 1.

110. **Ocaqverdi Məmmədqulu oğlu** – 31 yaş;
*Oğlanları:* Yaqub – 8 yaş;
Əliabbas – 1 yaş;
*Himayəsindəki qohumları:* Xankişi – 19 yaş;
Ağakişi – 13 yaş;
Qadınların sayı – 3.

111. **Nurulla Həzrətqulu oğlu** – 16 yaş;
Qadınların sayı – 1.

112. **Kərbəlayi Vəli Daşdəmir oğlu** – 45 yaş;
*Oğlanları:* Ağacan – 15 yaş;
Orucəli – 3 yaş;
Rəhim – 1 yaş;
Qadınların sayı – 4.

113. **Babakişi Ələsgər oğlu** – 25 yaş;
*Oğlu:* Bədəl – 2 yaş;
Qadınların sayı – 1.

114. **Nəsrulla Mehdi oğlu** – 28 yaş;
*Oğlu:* Yusif – 2 yaş;
*Qardaşı:* Fətulla – 25 yaş;
Qadınların sayı – 2.

115. **Novruzəli Məmmədtağı oğlu** – 22 yaş;
Qadınların sayı – 1.

116. **Cəfərqulu Novruz oğlu** – 29 yaş;
*Oğlu:* Qardaşxan – 6 yaş;
*Qardaşı:* Mövlaqulu – 22 yaş;
Atakişi – 18 yaş;
Qadınların sayı – 4.

117. **Kərbəlayi Qurban Əliməmməd oğlu** – 43 yaş;
*Qardaşı:* Abasqulu – 38 yaş;
Qadınların sayı – 5.

118. **Novruz Pirvəli oğlu** – 61 yaş;
*Oğlanları:* Fərəculla – 31 yaş;
Rəcəb – 25 yaş;
Nurulla – 16 yaş;
*Fərəcullanın oğulları:* Şükrulla – 8 yaş;
Pirvəli – 4 yaş;
Qadınların sayı – 5.

119. **Məşədi Mədət Pirvəli oğlu** – 93 yaş;

120. **Əsədulla Əliəsəd oğlu** – 32 yaş;
*Oğlu:* Rufulla – 9 yaş;
Qadınların sayı – 4.

121. **Nağı Məmmədqulu oğlu** – 45 yaş;
*Oğlanları:* Əmir – 17 yaş;
Musa – 14 yaş;

*Qardaşı:* Baxış – 28 yaş;
Qadınların sayı – 2.

122. **Haqverdi Qədim oğlu** – 20 yaş;

123. **Hümmətəlı Əliqulu oğlu** – 28 yaş;
*Qardaşı:* Eyvazəli – 26 yaş;
*Eyvazəlinin oğlu:* Musa – 4 yaş;
Qadınların sayı – 3.

124. **Cəfərqulu Vəliqulu oğlu** – 41 yaş;
*Oğlanları:* Fətulla – 3 yaş;
Feyzulla – 2 yaş;
*Qasımxanın oğlanları:* Cavad – 14 yaş;
Fəraculla – 8 yaş;
Qadınların sayı – 2.

125. **Allahverdi Qalabəyi oğlu** – 42 yaş;
*Oğlanları:* Tarverdi – 14 yaş;
Əliməmməd – 7 yaş;
Qadınların sayı – 4.

126. **Fərəculla Məhərrəm oğlu** – 22 yaş;
*Oğlu:* Xəlilulla – 3 yaş;
*Qardaşları:* Amanulla – 18 yaş;
Nəsrulla – 16 yaş;
İbadulla – 7 yaş;
Abduləzim – 5 yaş;
Qadınların sayı – 2.

127. **Əbdüləli Məmmədqasım oğlu** – 21 yaş;
*Qardaşları:* Nurəli – 17 yaş;
Mahmudəli – 13 yaş;
Ələsgər – 4 yaş;
*Himayəsindəki qohumu:* Hətəmxan – 6 yaş;
Qadınların sayı – 2.

128. **Fətalı Ağamalı oğlu** – 15 yaş;
*Qardaşı:* Şaəli – 13 yaş;
*Əmisi:* İsmailəli – 35 yaş;
*İsmailəlinin oğulları:* Məhəmməd – 11 yaş;
Əli – 8 yaş;
Qadınların sayı – 2.

129. ***Amanulla Almaz oğlu*** – 31 yaş;
*Oğlanları:* Hüseyn – 8 yaş;
Teymur – 5 yaş;
*Yaxın qohumları:* İbadulla – 25 yaş;
Şıxəli – 14 yaş;
Əmrah – 12 yaş;
Qadınların sayı – 5.

130. **Molla Əliəkbər Pirverdi oğlu** – 55 yaş;
*Oğlanları:* Hüseynxan – 15 yaş;
Rüstəm – 13 yaş;
Əliəskər – 8 yaş;
Ağaəli – 5 yaş;
Müzəffər – 1 yaş;
Qadınların sayı – 3.

131. **Əsəd Ağamirzə oğlu** – 40 yaş;
*Qardaşları:* İbadulla – 36 yaş;
Fətulla – 28 yaş;
Qadınların sayı – 3.

132. **İsmail Əliqulu oğlu** – 54 yaş;
*Oğlanları:* Novruz – 22 yaş;
Xanəli – 18 yaş;
Qadınların sayı – 3.

133. **Abdulla Ağakərim oğlu** – 45 yaş;
*Oğlanları:* Cəbrail – 14 yaş;
Mikail – 12 yaş;
Həsən – 11 yaş;
Qadınların sayı – 1.

134. **Heydər Qərib oğlu** – 32 yaş;
*Oğlu:* Oruc – 1 yaş;
Qadınların sayı – 1.

135. **Məmmədvəli Çöllər oğlu** – 35 yaş;
*Oğlanları:* Rüstəm – 8 yaş;
Astan – 6 yaş;
Qadınların sayı – 2.

136. **Ağəli Babaş oğlu** – 28 yaş;
Qadınların sayı – 2.

137. **Əmirastan Məmmədqulu oğlu** – 35 yaş;
*Oğlanları:* Cəbrail – 4 yaş;

Mikail – 2 yaş;
Qadınların sayı – 2.

138. **Qasım Şıxverdi oğlu** – 39 yaş;
*Oğlanları:* Abbas 16 yaş;
Nuh – 8 yaş;
*Qardaşı:* Qafar – 22 yaş;
*Qafarın oğlu:* Məhəmməd – 2 yaş;
Qadınların sayı – 3.

139. **Məmiş Əbil oğlu** – 40 yaş;
*Oğlu:* Xanhüseyn – 17 yaş;
Qadınların sayı – 3.

140. **Səfixan Məmmədkazım oğlu** – 41 yaş;
*Oğlanları:* Mehdi – 14 yaş;
Qardaşxan – 12 yaş;
Qadınların sayı – 3.

141. **Əhməd Mirzə oğlu** – 110 yaş;
*Oğlanları:* Alı (Əli) – 40 yaş;
Pirəli – 31 yaş;
Murad – 35 yaş;
Niftalı – 39 yaş;
Pənahəli – 29 yaş;
Qadınların sayı – 7.

142.**Fətulla Kərbəlayi Abdulla oğlu** – 35 yaş;
*Oğlanları:* Məmmədəli – 14 yaş;
Xanəli – 12 yaş;

*Qardaşları:* Canməmməd – 30 yaş;
Bəyməmməd – 12 yaş;
Qadınların sayı – 2.

143. **Hümmətəli Məmməd oğlu** – 45 yaş;
*Oğlanları:* Şaəli – 9 yaş;
Xanəli – 1 yaş;
*Qardaşları:* Xanməmməd – 18 yaş;
Muradəli – 35 yaş;
Fətəli – 28 yaş;n
Ağaəli – 26 yaş;
*Muradəlinin oğlu:* Güləli – 3 yaş;
Qadınların sayı – 7.

144. **Kərbəlayi Nuru Əli oğlu** – 40 yaş; (propurşik)
*Oğlanları:* Əsgərəli – 12 yaş;
Əli – 10 yaş;
Əzizəli – 8 yaş;
Qadınların sayı – 1.

145. **Əbi Məmmədasan oğlu** – 50 yaş;
*Oğlanları:* Nurulla – 15 yaş;
Məmmədasan – 4 yaş;
*Qardaşı:* Məmmədhüseyn – 25 yaş;
*Məmmədhüseynin oğlu:* İman – 6 yaş;
Rüstəm – 3 yaş;
Qadınların sayı – 6.

146. **Hüseyn Şahverdi oğlu** – 50 yaş;
*Oğlanları:* Abış – 15 yaş;

Səfər – 10 yaş;
*Qardaşları:* Məmmədbağır – 40 yaş;
Kazım – 30 yaş;
*Məmmədbağırın oğlu:* Yusif – 15 yaş;
Qadınların sayı – 5.

147. **Rəcəbəli Əhməd oğlu** – 19 yaş;
Qadınların sayı – 1.

148. **Mirzəməmməd Hacı Məmmədqulu oğlu** – 31 yaş;
*Oğlanları:* Rufulla – 6 yaş;
Lütfulla – 2 yaş;
Qadınların sayı – 3.

149. **Xudayar Hüseynəli oğlu** – 40 yaş;
*Oğlanları:* Əlimurad – 8 yaş;
Ağamurad – 6 yaş;
Xanmurad – 3 yaş;
*Qardaşları:* Gülməmməd – 22 yaş;
Məmməd – 24 yaş;
*Məmmədin oğlu:* Amanulla – 1 yaş;
Qadınların sayı – 2.

150. **Yarməmməd Molla Seyid Məmməd oğlu** – 40 yaş;
*Oğlu:* Gülməmməd – 17 yaş;
Qadınların sayı – 1.

151. **Abduləhəd Məmməd oğlu** – 31 yaş;
*Oğlu:* Ağa (Süleyman) – 11 yaş;
Qadınların sayı – 3.

152. **Məmməd İsmail oğlu** – 25 yaş;
*Oğlu:* Mustafa – 2 yaş;
Qadınların sayı – 1.

153. **Cəfər Mirverdi oğlu** – 35 yaş;
*Oğlanları:* Cavad – 17 yaş;
İmamnəzər – 13 yaş;
Qadınların sayı – 2.

154. **Qurban Qədimqulu oğlu -** 28 yaş;
*Qardaşı:* Oruc – 26 yaş;
Qadınların sayı – 2.

155. **Seyfulla Məşədi Baxış oğlu** – 32 yaş;
Qadınların sayı – 1.

156. **Cəfər Hacı Mirzəmməmməd oğlu** – 29 yaş;
*Oğlu:* Xanbaba – 4 yaş;
Qadınların sayı – 2.

157. **Cavad Hacı Əli oğlu** – 35 yaş;
*Oğlanları:* Fətta – 4 yaş;
Abdulla – 2 yaş;
*Qardaşı:* Kazım – 18 yaş;
Qadınların sayı – 2.

158. **Mənsum Həsən oğlu** – 25 yaş;
*Oğlu:* Fətulla – 1 yaş;
Qadınların sayı – 1.

159. **Eynulla Fərəculla oğlu** – 27 yaş;
Qadınların sayı – 1.

160. **Adıgözəl Kazım oğlu** – 40 yaş;
*Oğlu:* Əsədulla – 12 yaş;
Qadınların sayı – 1.

161. **Molla Hüseyn Bayraməli oğlu** – 28 yaş;
Qadınların sayı – 2.

161. **Sadətxan Kərim oğlu** – 21 yaş;
Qadınların sayı – 2.

162. **Cabbar Gülməmməd oğlu** – 28 yaş;
*Oğlu:* Fətulla – 3 yaş;
Qadınların sayı – 1.

163. **Məmməd Abgül oğlu** – 25 yaş;
Qadınların sayı – 2.

164. **Süleyman Kəblə Alı (Əli) oğlu** – 29 yaş;
*Oğlu:* Seif – 4 yaş;
*Qardaşı:* Əliəsgər – 25 yaş;
Qadınların sayı – 2.

165. **Əli Daşdəmir oğlu** – 28 yaş;
*Oğlanları:* Mahmud – 5 yaş;
Bayram – 3 yaş;
Qadınların sayı – 1.

166. **Eynulla Daşdəmir oğlu** – 26 yaş;
*Oğlanları:* Mirzəcanı – 7 yaş;
Mirzəyar – 4 yaş;
Təhməz – 1 yaş;
Qadınların sayı – 1.

167. **Hüseyn Pirverdi oğlu** – 40 yaş;
*Oğlanları:* Cahangir – 9 yaş;
Cəbi – 7 yaş;
*Qardaşı:* Dadaş – 30 yaş;
Qadınların sayı – 2.

168. **Fətulla Kərim oğlu** – 35 yaş;
*Oğlanları:* Hüseyn – 15 yaş;
Cəbrail – 12 yaş;
Səfiəli – 8 yaş;
Qadınların sayı – 4.

169. **Hətəmxan Gülyar oğlu** – 30 yaş;
*Qardaşı:* Əbi – 26 yaş;
Qadınların sayı – 2.

170. **Nəsrulla Kərbəlayi Abdul oğlu** – 35 yaş;
*Qardaşı:* Şahməmməd – 32 yaş;
Qadınların sayı – 3.

171. **Məmmədqulu Kərbəlayi Salman oğlu** – 14 yaş;
*Oğlu:* Mirzə... – 1 yaş;

***1873-cü ildə Mahmudlu kəndində 171 tüstü, 598 kişi, 470 qadın olmaqla, cəmi 1068 nəfər əhali yaşamışdır.***

## *MÜƏLLİF HAQQINDA*

**Tədqiqatçı-yazıçı**
**Paşa Yaqub Alı oğlu**
**Elmi-dini və tarixi araşdırmalarla**
**məşğuldur. Otuz kitabın**
**və onlarla məqalənin müəllifidir.**
**Bəşəri Dəyərlərin Təbliği Fondunun prezidentidir.**
**Əgər siz öz soykökünüz və yaxud doğulduğunuz yerin**
**tarixi barədə araşdırma aparılmasını istəyirsinizsə**
**müəllifə müraciət edə bilərsiniz:**
**www. pashayaqub.info.az**
**www.anl.az**

**E-mail: yaqub1968@mail.ru**
**Tel.: (050) 375 30 97**

## Kitabın içindəkilər

Redaktordan ön söz əvəzi ........................................................ 5
Eminli (Mahmudlu) kəndi ........................................................12
Eminli kəndindəki toponimlər.................................................20
Eminlinin tarixi şəxsiyyətləri
Emin və Bədəl Eminəli oğulları ..............................................26
Eminli kəndi sovetləşmə dövründə ..........................................31
Eminli məscidi...........................................................................34
Eminli kənd məktəbi .................................................................36
Müəllimlərimiz..........................................................................41
Eminli kəndində kolxoz dövrü .................................................43
Eminli kəndinin bəzi görkəmli şəxsiyyətləri
və tanınmış ziyalıları ................................................................48
Eminli kəndinin şəhid və qaziləri............................................69
1941-1945-ci il müharibəsində Eminli kəndindən
iştirak etmiş veteranların siyahısı ............................................77
Bakı quberniyasının Lənkəran qəzasının Eminli (Mahmudlu)
kəndində yaşamış əhalinin 1873-cü il siyahıya alması............79

**Mətbəənin direktoru:** ***Elman Qasımov***
**Dizayner:** ***Mətanət Əliqızı***
**Korrektor:** ***Türkan Yaqub***

Çapa imzalanmışdır: 19.01.2015
Formatı 84x108 1/32. Həcmi 3,5 ç.v.
Sifariş № 04. Tiraj 100

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 514-73-73,
mob. (050; 055; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru